AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 7 (1352), 13 - 19 fevral 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Futbol üzrə dünya çempionatının Kubokunun əsli Prezident İlham Əliyevə təqdim edilib




Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FİFA-Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib.

Fevralın 9-da kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Kubok futbol üzrə dünya çempionatı Kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edilib.

Görüşdə çıxış edən Kristian KARAMBO deyib: “Azərbaycanda olmaq mənim üçün, həqiqətən də, şərəfdir. Sizin gözəl şəhəriniz var. Sizin həmişə idmana dəstək verdiyinizi bilirəm və buna görə Sizə minnətdarıq. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Cənab Prezident, bu Kubok Sizə təqdim olunur, siz buna layiqsiniz”.

Əfsanəvi futbolçu Kristian Karambo dünya çempionatının Kubokunun əslini Prezident İlham Əliyevə təqdim etdi.

*(ardı 2-ci səhifədə)*

## Pxençxan-2018 ”Olimpiya kəndi”ndə görüş

Pxençxan-2018 Olimpiadasının həyəcanı davam etməkdədir. Bu Olimpiadada iştirak edən 92 ölkənin bayrağı sırasında Azərbaycanın da dövlət bayrağı dalğalanır. Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunlarında ölkəmiz yalnız bir idmançı ilə deyil, həm də rəsmi nümayəndə heyəti ilə təmsil olunur. Bu, bir daha onu göstərir ki, Azərbaycan, həqiqətən də, Olimpiya ideallarına daim sadiq olmaqla, dünyanın aparıcı idman dövlətlərindən biri kimi öz önəmli mövqeyini qoruyub saxlayır.

Fevralın 10-da Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, MOK-un baş katibinin müavini Azər Əliyev, Azərbaycan Dağ Xizəkçiliyi Federasiyasının prezidenti Rauf Xəlilov "Olimpiya kəndi"nə gələrək, idmançılar üçün yaradılmış şəraitlə tanış olmuş, burada məskunlaşan idmançımız Patrik Braxner və rəsmi nümayəndə heyətinin üzvləri ilə görüşmüşlər.

*(ardı 2-ci səhifədə)*



## XXIII Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib



Fevralın 9-da Cənubi Koreyanın Pxençxan şəhərində XXIII Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib.

Mərasim 35 min yerlik Pxençxan şəhər stadionunda baş tutub. İki saat davam edən tədbir sülhə və gələcəyə çağırış mövzularını əhatə edən səhnələrlə start götürüb.

Qış Olimpiya Oyunlarının açılış mərasimini izləmək üçün dünyanın 21 ölkəsinin və bir neçə beynəlxalq təşkilatın rəhbər şəxsləri Pxençxana gəliblər. Onların arasında BMT-nin baş katibi Antonio Quterreş, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer, Yaponiyanın Baş naziri Şinzo Abe, ABŞ-ın vitse-prezidenti Mayk Pens, İsveç kralı Karl Qustav, İsveçrə Prezidenti Alain Berset, habelə Sloveniya, Polşa, Slovakiya, Litva, Estoniya və Latviyanın dövlət başçıları, Norveç, Danimarka, Lixtenşteyn və Finlandiyanın baş nazirləri, Monako knyazı, Danimarkanın şahzadə vəliəhdi, Kanadanın general-qubernatoru və başqaları da olub.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, Monreal-1976 Olimpiya Oyunlarının qalibi Tomas Bax bu idman bayramının Olimpiya tarixində yeni səhifə açdığını vurğulayaraq idmançılara qələbə əzmi arzulayıb. Sonra Cənubi Koreya Prezidenti Mun Ce-İn XXII Qış Olimpiya Oyunlarını açıq elan edib.

*(ardı 2-ci səhifədə)*




### *XXIII Qış Olimpiya Oyunlarında medal qazanan ölkələrin siyahısı*

| Ölkələr | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Almaniya | 4 | 0 | 2 | 6 |
| 2. Hollandiya | 3 | 2 | 2 | 7 |
| 3. Kanada | 2 | 4 | 1 | 7 |
| 4. ABŞ | 2 | 1 | 1 | 4 |
| 5. Fransa | 2 | 0 | 1 | 3 |
| 6. Norveç | 1 | 4 | 3 | 8 |
| 7. İsveç | 1 | 1 | 0 | 2 |
| 8. Avstriya | 1 | 0 | 0 | 1 |
| 9. Koreya Respublikası | 1 | 0 | 0 | 1 |
| 10. Çexiya Respublikası | 0 | 1 | 1 | 2 |
| 11. Yaponiya | 0 | 1 | 1 | 2 |
| 12. ROA* | 0 | 1 | 1 | 2 |
| 13. Avstraliya | 0 | 1 | 0 | 1 |
| 14. Slovakiya | 0 | 1 | 0 | 1 |
| 15. Finlandiya | 0 | 0 | 2 | 2 |
| 16. İtaliya | 0 | 0 | 1 | 1 |
| 17. Qazaxıstan | 0 | 0 | 1 | 1 |

* ROA - Rusiyanın Olimpiya Atletləri



## Nenad Laloviç BOK İcraiyyə Komitəsinin üzvü seçilib

Cənubi Koreyanın Pxençxan şəhərində Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 132-ci sessiyası öz işini başa çatdırıb. Sessiyanın gedişində BOK İcraiyyə Komitəsinə seçkilər də keçirilib.

Dünya Güləş Birliyinin (DGB) prezidenti Nenad Laloviç qarşıdakı 4 il müddətinə Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçilib.



BOK İcraiyyə Komitəsinə idmanın güləş növü üzrə seçilən ilk təmsilçi kimi tarixə düşən Nenad Laloviç Yay Olimpiya Növləri İdman Federasiyaları Assosiasiyasını təmsil edəcək.

Azərbaycan Güləş Federasiyasının prezidenti Fazil Məmmədov Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi BOK İcraiyyə Komitəsinə üzv seçilməsi münasibətilə təbrik edib, güləş idman növünün inkişafı yolunda bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, Nenad Laloviç 2015-ci ildən etibarən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür.

**Parisdən bürünc medal** Səh. 5

**İdman diplomatiyası beynəlxalq münasibətlərində mühüm amili kimi** Səh. 6

**Millimiz daha iki rəqiblə qarşılaşacaq** Səh. 7

## Avropa Şurasının Antidopinq Konvensiyasının və Azərbaycan Milli Antidopinq Agentliyinin nümayəndələri arasında görüş keçirilib

## Yarışların vaxtı dəyişdirildi

Səh. 5

# Futbol üzrə dünya çempionatının Kubokunun əsli Prezident İlham Əliyevə təqdim edilib

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi: - Çox sağ olun. Mən FİFA-ya, şəxsən sizə, sizin həmkarlarınıza bu tarixi Kuboku Azərbaycan xalqına, azərbaycanlı azarkeşlərə təqdim etmək məqsədilə Bakıya gəlişiniz üçün minnətdaram. Biz Azərbaycanın və Bakının turnenin keçirildiyi ölkə və şəhərlərdən biri kimi seçilməsindən qürur duyuruq. Bu, bizim üçün həqiqətən də böyük şərəfdir. Bu gün bu, böyük bir hadisə olacaq və mən əminəm ki, azarkeşlər bu Kuboka baxmaqdan çox məmnun olacaqlar. Mən sizin icazənizlə bu kuboka toxundum. Mən bilirəm ki, Kuboka yalnız çempionlar və dövlət başçıları toxuna bilərlər. Əminəm ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisə futbolumuzda, oyunçularımızda daha da böyük həvəs oyadacaq, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcək. Biz futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri var. Keçmiş Rio Olimpiya Oyunlarında Azərbaycan yığması ümumi medal sayına görə dünyada 14-cü yeri tutmuşdur. Biz iki mötəbər beynəlxalq idman yarışına - Avropa Oyunlarına və İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişik və bu oyunlarda komandamız medal sayına görə müvafiq olaraq ikinci və birinci yerləri tutmuşdur. Biz Bakıda futbol üzrə Avroliqanın finalına və futbol üzrə Avropa çempionatının dördddəbir finalına və bir neçə qrup oyunlarına ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Biz artıq mötəbər beynəlxalq, Avropa idman və futbol yarışlarına ev sahibliyi edəcək dünya ölkələrinin birinə çevrilirik. Əlbəttə ki, bunu biz dostluq və FİFA-ya hörmət əlaməti hesab edirik. Sizdən bizim qonağımız olmuş FİFA-nın prezidenti cənab İnfantinoya salamlarımı çatdırmağı xahiş edirəm. Biz hamımız bu tarixi günü xatırlayacağıq.

Sonra FİFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq FİFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

AFFA-nın baş katibi Elxan Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, futbol üzrə dünya çempionatının Kuboku xüsusi təyyarədə yeniyetmə azərbaycanlı futbolçuların müşayiəti ilə Bakıya gətirilib. Hətta uşaqlar təyyarədə Kristian Karambo ilə topla oynayıblar. Dünya çempionatının kuboku yerli azarkeşlərin görməsi üçün "Gənclik Mall"da nümayiş etdirilib.

Sonda xatirə şəkilləri çəkdirildi.



# Pxençxan-2018 "Olimpiya kəndi"ndə görüş

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan nümayəndə heyətinin məskunlaşdığı mənzil qərargahda keçirilən görüşdə nümayəndə heyətinin şef-de-missionu Anar Bağırov oyunların gündəlik proqramları, Olimpiadada ölkəmizi slalom yarışlarında təmsil edən idmançımızın məşqləri, hazırlığı barədə və Azərbaycan nümayəndə heyətinə yaradılan şəraitlə bağlı məlumat vermişdir. daha çox idmançı ilə təmsil olunacaqdır. Görüşdə MOK-un baş katibinin müavini Azər Əliyev ölkəmizdə bütün idman növlərinin yüksək səviyyədə inkişaf etdiyini, qış idman növlərinin də bu inkişafın sıralarına tezliklə qoşulacağına inandığını bildirmişdir. O, Tokio-2020 Olimpiadasında atletlərimizin, eyni zamanda ağırlıqqaldıranlarımızın yüksək nəticələr göstərəcəyinə əminliyini vurğulamışdır. Görüş zamanı ölkəmizi

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmana və Olimpiya Hərəkatına göstərdiyi diqqət və qayğıdan danışmışdır. O, əmin olduğunu bildirmişdir ki, qış idman növləri bazasından səmərəli istifadə etməklə yerli idmançıların da yetişməsinə diqqət artırılacaq və ölkəmiz növbəti Qış Olimpiya Oyunlarında təmsil edən idmançı Patrix Braxner slalom yarışlarında uğur qazanmaq üçün öz imkanlarından səmərəli istifadə etməyə çalışacağını, ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir. Görüşdə qonaqlar Pxençxan-2018-in məşəlinin maketi ilə tanış olmuş və xatirə şəkli çəkdirmişlər.



# XXIII Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib

*(əvvəli 1-ci səhifədə)*

Olimpiya bayrağı stadiona gətirilib, Olimpiya himni səsləndirilib, idmançıların, hakimlərin və məşqçilərin adından Olimpiya andı içilib.

Mərasimin gedişində stadionda Olimpiya məşəli alovlandırılıb. Məşəl estafetində məşhur aktyor Ceki Çan da iştirak edib.

XXIII Qış Olimpiya Oyunlarının açılış mərasimi bir sıra özünəməxsus hadisələr və parlaq səhnələrlə yadda qalıb. Oyunların rəsmi açılış mərasimi "Bütün dünyada sülh naminə" devizi altında keçirilib. Mərasimin gedişində Con Lennonun bütün dünyada sülhü tərənnüm edən "İmagine" mahnısı səsləndirilib. Mərasim iştirakçıları ailə ocağının rahatlığının simvolizə edən şamlar yandırıb, sonra göyərçin formasında düzülüblər.

Tədbirin ssenari müəllifləri əsasən müasir texnologiyadan istifadə ediblər, belə ki, tamaşaçılar qarşısında dünyanın rəqəmsal formada obrazı canlandırılıb. Rəqəmsal texnologiyalar vasitəsilə media mərkəzinə çevrilən arenadan dünyanın bütün guşələrinə bu Oyunların əsas mesajı - bütün dünyada sülh mesajı çatdırılıb.

Cənubi Koreyadan olan səkkiz idmançı Olimpiya bayrağını arenaya gətirib. Olimpiya məşəlini yandırmaq şərəfi fiqurlu konkisürən - Turin-2010 Olimpiya Oyunlarının çempionu, Soçi-2014 Olimpiadasının gümüş mükafatçısı Kim





Yon Aya nəsib olub. Olimpiya alovu teleskopik məşəlin köməyilə yandırılıb.

Pxençxan-2018 Olimpiadasının açılış mərasiminin unikallığı, həmçinin Cənubi Koreya və KXDR komandalarının idmançıların paradında vahid Koreya bayrağı altında keçməsi olub. Bu, son 12 ildə ilk dəfə baş verib. Vahid Koreya bayrağı əvvəllər Sidney-2000, Afina-2004 və Turin-2006 olimpiadalarında istifadə edilmişdi. Tərəflər arasında münaqişə yarandığına görə, 2006-cı ildən sonra bu ənənəyə son verilmişdi.

Olimpiadanın açılış mərasimində Cənubi Koreya Prezidenti Mun Çe-İn ilk dəfə olaraq KXDR liderinin bacısı Kim Yo Çon ilə görüşüb. İki ölkənin nümayəndələri bir-birinin əlini sıxıblar.

XXIII Qış Olimpiya Oyunları ümumilikdə 13 idman obyektində keçiriləcək. Oyunların proqramına 7 idman növü daxildir və idmançılar 102 dəst medal uğrunda mübarizə aparacaqlar. Medalların birinin çəkisi 586 qramdan artıqdır. Bu, Qış Olimpiya Oyunları tarixində çəkisinə görə ən ağır mükafatdır.

Pxençxan-2018 Olimpiya Oyunlarında 92 ölkədən 2925 idmançı mübarizə aparır. Bu, indiyə qədər Qış Olimpiadalarında iştirak edən idmançıların sayına görə rekord nəticədir. Olimpiadada ən çox idmançı ilə təmsil olunan komanda ABŞ-dır (242 atlet). KXDR komandasına xüsusi kvota ayrılıb və bu ölkə Oyunlarda 22 idmançı, o cümlədən Şimali və Cənubi Koreyanın qadınlardan ibarət vahid hokkey komandası ilə təmsil olunur. BOK-un qərarı ilə Rusiya yarışlara buraxılmasa da, Pxençxanda 169 rusiyalı idmançı iştirak edir. İsveçrə olimpiadada 170, Almaniyanı 156, İtaliya isə 122 idmançı təmsil olunur. Avstriya, Norveç, Finlandiya, Fransa Pxençana 100-dən çox idmançı göndərib.

XXIII Qış Olimpiya Oyunları 6 yeni ölkənin böyük idman tədbirində debütü ilə də əlamətdardır. Belə ki, Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur ilk dəfə Qış Olimpiya Oyunlarında iştirak edirlər.

Pxençxan-2018 Olimpiadasında Azərbaycan da təmsil olunur. Ölkəmiz qış Olimpiya Oyunlarında 1998-ci ildən iştirak edir. Azərbaycan bu olimpiadada 1 idmançı ilə təmsil olunur. İdmançımız Patrik Braxner dağ xizəyi üzrə slalom və nəhəng slalom yarışlarında qüvvəsini sınayır. İdmançımız yarışlara dünən başlayıb. Təmsilçimizin iştirak etdiyi slalom yarışlarına fevralın 22-də yekun vurulacaq.



Qeyd edək ki, martın 9-dan 18-dək Pxençanda Qış Paralimpiya Oyunları keçiriləcək. Paralimpiyaçılar 5 növdə 80 dəst medal uğrunda mübarizə aparacaqlar.














# Qərbi avropalılar Cənubi Asiyada liderdirlər

***10 Fevral***

### Skiatlon

İsveçli xizəkçi Şarlotta Kalla Pxençxan-2018 Qış Olimpiya Oyunlarının ilk qızıl medalını qazanıb. Skiatlon yarışlarında çıxış edən isveçli atlet 15 kilometr məsafəni 40 dəqiqə 44,9 saniyəyə qət edərək Olimpiya çempionu adını qazanıb. Norveçli Marit Borqen gümüş, Finlandiya atleti Krista Parmakoski isə bürünc medala sahib olublar.

### Biatlon

Qadınlar arasında biatlonun 7,5 kilometr məsafəyə sprint yarışlarında Almaniya təmsilçisi Laura Dahlmeier marşrutu 21 dəqiqə 6 saniyəyə qət edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Norveçli Marte Olsbu yarışı ikinci, Çexiya təmsilçisi Veronika Vitkova isə üçüncü pillədə başa vurublar.

### Şort-trek

Kişilər arasında şort-trek idman növündə 1500 metr məsafəyə yarışlarda Koreya Respublikasından olan atlet Lim Hyojun 2 dəqiqə 10 saniyə göstərici ilə Olimpiya çempionu olub. Hollandiyalı Sjinkie Knget gümüş, Simyon Elistratov (Beynəlxalq Olimpiya Komitəsi) isə bürünc medal əldə ediblər.

### Konkisürmə

Qadınlar arasında 3000 metr məsafəyə konkisürmə yarışlarında hollandiyalı idmançılar fəxri kürsüdə yer alıblar. Belə ki, Karlin Açterikte qızıl, İrin Vüst gümüş, Antoinette De Yonq isə bürünc medal qazanıblar.

***11 Fevral***

### Skiatlon

Kişilər arasında 30 kilometr məsafəyə (15+15) skiatlon yarışlarında Norveç idmançıları uğurla çıxış edərək fəxri kürsüdə yer alıblar. Belə ki, məsafəni 1 saat 16 dəqiqə 20 saniyəyə qət edən Simen Hegstad Kruger Olimpiadanın qalibi olub. Onun həmyerliləri Martin Johnsrud Sundbi və Hans Krister Holund isə ilk üçlükdə yer alıblar.

### Biatlon

Kişilər arasında biatlonun 10 kilometr məsafəyə sprint yarışlarında Almaniya təmsilçisi Arnd Peiffer marşrutu 23 dəqiqə 38 saniyəyə qət edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Çexiyalı Miçal Krkmarn yarışı ikinci, İtaliya təmsilçisi Dominik Vindisç isə üçüncü pillədə başa vurublar.

### Snoubord

Kişilər arasında snoubord yarışlarının sloupstayl növündə qalib adını 87,16 xalla ABŞ təmsilçisi Redmond Gerard qazanıb. Kanadalı atletlər Maks Parrot gümüş, Mark McMorris isə bürünc medal əldə ediblər.

### Fristayl

Fristaylın moqul növü üzrə yarışlarında qadınların mübarizəsində 78,65 xalla fransalı atlet Perrine Laffont birinci olub. Kanadalı Castine Dufour-Lapointe yarışı ikinci, qazaxıstanlı Yuliya Qalişeva isə üçüncü yerdə tamamlayıblar.

### Kirşə

Kirşə idman növünün fərdi yarışlarında kişilər arasında Avstriya idmançısı David Gleirşer birinci, ABŞ təmsilçisi Kris Mazdzer ikinci, almaniyalı Yohannes Ludviq isə üçüncü olublar.

### Konkisürmə

Kişilər arasında 5000 metr məsafəyə konkisürmə yarışlarında Niderland idmançısı Sven Kramer 6 dəqiqə 9 saniyə nəticə ilə Olimpiya rekordunu yeniləyərək çempion olub. Kanada idmançısı Ted-Jan Bloemen ikinci, norveçli Sverre Lunde Pedersen isə üçüncü olublar.







## Olimpiya çempionu könüllü kimi

4 qat Olimpiya çempionu Çin Çon Oh olimpiadada könüllü kimi iştirak edir. Cənubi Koreyadan olan idmançı öz ölkəsində keçirilən Olimpiya Oyunlarında könüllü kimi iştirak etdiyindən məmnunluğunu ifadə edib: “Könüllülər proqramına qoşulduм və hazırda Pxençxan-2018 Olimpiadasında iştirak edirəm. Yarışda idmançı və könüllü kimi iştirak etmək başqa-başqa şeylərdir. Çox həyəcanlıyam”.

Qeyd edək ki, Cənubi Koreya idmançısı 4 qat Olimpiya çempionu adına atıcılıq yarışlarında layiq görülüb. O, 3 dəfə silahdan 50 metr, 1 dəfə isə pnevmatik silahdan 50 metr məsafədən atəş açmaqla fərqlənib. Bundan başqa, Çin Çon Oh Olimpiya Oyunlarının 2 qat gümüş mükafatçısı, eləcə də, Dünya kuboku yarışlarının 3 qat qalibidir.



## Biatlonçu xanım 2 qat Olimpiya çempionu olub

Almaniyalı biatlonçu Laura Dalmeyer 2 qat Olimpiya çempionu olub.

O, qızıl medalları Pxençxan-2018 Qış Olimpiya Oyunlarının biatlon üzrə 10 km və 7,5 km məsafəyə yarışlarında qazanıb.

Qeyd edək ki, Laura həmçinin çıxış etdiyi idman növündə 7 dəfə dünya çempionatının qızıl, 3 dəfə gümüş və bürünc medallarına sahib olub.



## Kanadalı idmançı iti ölümdən xilas edib

Kanadalı idmançı, Olimpiya çempionu Meqan Dyumel sallaqxanaya aparılan iti ölümdən xilas edib. 32 yaşlı fiqurlu konkisürən xanım həmin iti özü ilə Kanadaya aparmaq niyyətindədir.

Koreyada itlərin müdafiə cəmiyyətinin sədri Ek Pak bu məsələ ilə bağlı hüquqi sənədləri qaydasına qoymağı vəd edib.

Məlumat üçün bildirək ki, Olimpiya Oyunlarının keçirildiyi Kanvondo vilayətində 200-dən artıq it ferması fəaliyyət göstərir. Təşkilat Komitəsi burada yerləşən restoranlara kompensasiya olaraq olimpiada dövründə menyudan it ətindən hazırlanan yeməkləri çıxarmağı təklif etsə də, bəziləri müştəri itirməmək üçün bundan imtina edib.



Təxminən bir il əvvəl məşq zamanı yıxılaraq komaya düşən kanadalı snoubord idmançısı Mark Makmorris Pxençxan-2018 Qış Olimpiya Oyunlarında bürünc medal qazanıb. O vaxt ağaca çırpılaraq ağır xəsarət alan və uzun müddət yaşamaq uğrunda mübarizə aparan kanadalı snoubord idmançısı Cənubi Koreyanın Pxençxan şəhərində təşkil edilən Olimpiya Oyunlarında ilk üçlükdə yer alaraq gözlənilməz uğura nail olub.

Bu hadisədən sonra idmana qayıdışı mümkünsüz görünən 24 yaşlı atlet olimpiadada snoubord yarışlarının sloupstayl növündə 85,20 xalla fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

## Komaya düşən idmançı Pxençxan Olimpiadasında medal qazandı

Makmorris o zaman dağda həmin dəhşətli hadisə baş verdikdən 1,5 saat sonra tapılaraq helikopterlə xəstəxanaya çatdırılmışdı. Gənc idmançının bədənində 16 sınıq aşkarlanmışdı. Koma vəziyyətinə düşən Markın üzərində iki dəfə cərrahiyyə əməliyyatı aparılmışdı. İdmançı başına gələn hadisənin ağır avtomobil qəzasına bənzədiyini bildirərək deyib: “Məşq zamanı havada müxtəlif idman fəndləri yerinə yetirərkən qəflətən ağacın üstünə düşdüm. Ağaca çırpıldıqdan sonra tərpənə bilmirdim. Xilasediciləri uzun müddət gözlədim və sonra yaşamaq uğrunda mübarizə apardım. Daha snoubord idmanı ilə məşğul ola bilməyəcəyimi və öləcəyimi düşünürdüm”.

İndi kanadalı snoubordçu zədələnməkdən qorxmur. Ötən il baş vermiş qəza ona idmanda yüksəliş yollarının asan olmadığını daha yaxşı öyrədib: “Bu hadisənin təkrarlanmasından ehtiyat etmirəm. İki il əvvəl də bud sümüyüm qırılmışdı. Son bir neçə ildə ağır zədələr aldığımdan qazandığım hər hansı medalın mənim üçün necə dəyərli olduğunu anlamaq mümkündür. Mən indi bu idmanı daha çox sevirəm. Digər tərəfdən mənə çətin günlərimdə dəstək olan və dağa dönüb snoubordla məşğul olmaq üçün ilham verən azarkeşlərim qarşısında böyük məsuliyyət hiss edirəm”.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Təhsil müəssisələrində gənc nəslin fiziki tərbiyəsinə xüsusi diqqət yetirilir

***Dövlətin gənclər siyasətinin əsasını təşkil edən əsas məsələlərdən biri də uşaq və gənclərin idman və bədən tərbiyəsi ilə məşğul olmalarını təmin etməkdir. Çünki sağlamlıq müasir dövrümüzdə mühüm əhəmiyyət kəsb edən önəmli amildir. Bu nöqteyi-nəzərdən ölkənin orta ümumtəhsil məktəblərində, ali və orta ixtisas müəssisələrində, elm ocaqlarında uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqamətində mühüm işlər görülür, müvafiq tədbirlər həyata keçirilir.***

***Səbail rayonu ərazisində fəaliyyət göstərən 189-190 saylı tam orta məktəbdə də, bu sahə diqqətdən kənarda qalmayıb. Qocaman tədris ocaqlarından olan bu orta məktəbdə uşaq və gənclərin fiziki cəhətdən sağlam böyümələri, xalqımızın adət-ənənələrinə hörmət, vətənə məhəbbət, eləcə də, onların hər zaman torpaqlarımızın müdafiəsinə hazır olmaları ruhunda tərbiyə edilməsinə böyük önəm verilir.***




## "Həyatda qazandığımız uğurlara görə məktəbə, müəllimə borcluyuq"

Səbail rayonundakı 189 və 190 saylı tam orta məktəblər Təhsil Nazirliyinin qərarına əsasən, 2015-cü ildə birləşib. Məhz həmin ildə "Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial iqtisadi inkişaf proqramına" uyğun olaraq burada əsaslı təmir işləri aparılıb. Məktəbin beşmərtəbəli binası yüksək səviyyədə təmir olunaraq şagird və müəllimlərin ixtiyarına verilib.

189 saylı məktəbin binası 1937-ci ildə inşa edilib. 1941-1945-ci illərdə 15/46 nömrəli təxliyyə hospitalı kimi fəaliyyət göstərən orta məktəb 1947-ci ildə yenidən tədris müəssisəsi kimi işə başlayıb. Haqqında sözügedən tədris ocağı uzun illər Bakı şəhərində özünəməxsus ənənələri ilə seçilən tanınmış məktəblərdən biri olub. Hər bir məktəbin fəaliyyətini onun məzunlarının cəmiyyətdəki mövqeyi ilə dəyərləndirmək mümkündür. Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin sözləri ilə desək, "Həyatda qazandığımız uğurlara görə məktəbə, müəllimə borcluyuq".

## Məktəbin məzunları arasında tanınmış insanlar çoxdur

190 saylı orta məktəb haqqında da xoş sözlər söyləmək mümkündür. Bu məktəbin adı tanınmış pedaqoq, maarifçi Sona xanım Tağıyevanın fəaliyyəti ilə sıx bağlıdır. Belə ki, 1945-ci ildə fəaliyyətə başlayan təhsil ocağının ilk direktoru Əməkdar müəllim, "Şöhrət" ordenli Sona xanım Tağıyeva olub və 59 il məktəbə rəhbərlik edib.

Təbii ki, hər bir məktəbin adını müxtəlif sahələrdə öz sözünü deməyi bacaran, istedadlı məzunlar daha da şərəfləndirirlər. Sözügüdən təhsil ocağının da məzunları sırasında tanınmış insanlar az deyil. 189-190 saylı orta məktəbin məzunları arasında ölkənin nüfuzlu, adlı-sanlı ziyalıları, alim və yazıçıları, bəstəkar və şairləri, bir sözlə, Azərbaycanı ləyaqətlə təmsil edənlər çoxdur. Belə insanlardan Elçin Əfəndiyev, Kamal Abdulla, Osman Mirzəyev, Bəhram Bağırzadə, Çingiz Abdullayev, Hacı İsmayılov, Yaşar Nuri və s. görkəmli sənət adamlarının ictimai-siyasi xadimlərin adlarını çəkmək mümkündür.

Hazırda 189-190 saylı orta məktəbə təcrübəli pedaqoq, respublikanın Əməkdar müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Ceyran Kuliyeva rəhbərlik edir. Məktəbdə tədris rus və Azərbaycan dillərində həyata keçirilir. Şəhərin pilot məktəblərindən olan bu təhsil ocağı Təhsil Nazirliyinin və British Council təşkilatının birgə işi olan "Fun English" və eləcə də, "Elektron məktəb" layihələrində fəal iştirak edir. 56 sinif otağı olan təhsil ocağında 2017-2018-ci tədris ili üzrə 1415 nəfər şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 130-dan artıq müəllim məşğul olur. Müəllimlər arasında təcrübəli, peşəkar, öz fənnini dərindən bilən, müasir təhsilin nəbzini tutanlar çoxdur. Onların arasında "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibləri, "Əməkdar müəllim"lər, "Qabaqcıl təhsil işçiləri", müxtəlif elm sahələri üzrə fəlsəfə doktorları, "Tərəqqi" medalı ilə təltif olunanlar, dərslik müəllifləri var. Məktəbin şagirdləri müxtəlif şəhər və respublika olimpiadalarında, beynəlxalq idman, musiqi, rəsm yarışlarında iştirak edir və nailiyyətlər qazanırlar. Təhsil ocağında oxuyanlar "İnepo", "Sabahın alimləri" müsabiqə və olimpiadalarında uğurla iştirak edirlər. 189-190 saylı məktəb ötən dərs ilində orta təhsil pilləsi üzrə buraxılış imtahanlarının nəticələrinə görə, Bakı şəhər məktəbləri arasında ilk onluqda yer alıb. 2017-ci ildə məktəbin məzunlarından 55-i respublikada, 4-ü isə xaricdə ali təhsil müəsisələrinə qəbul olunublar. Məzunlardan 5 nəfəri 600-dən, 14 nəfəri 500-dən çox bal toplayıb. Məktəb ötən illərdə olduğu kimi "Elektron məktəb", "Global-lab", "Leap", "Məktəblərdə futbol və şahmat dərsləri", layihələri, həmçinin, yeni "Məktəblinin dostu" pilot layihəsində iştirak edəcək.

## "Məktəbimizdə şagirdlərin fiziki tərbiyəsinə xüsusi diqqət yetirilir"

Məktəbdə təhsil sistemində mövcud olan qabaqcıl təcrübənin öyrənilməsi və yayılması, istedadlı şagirdlərin aşkar edilməsi və onlara qayğı göstərilməsi daim diqqət mərkəzindədir. Məktəbdə gənc müəllimlərin maarifləndirilməsinə, şagirdlərin təlim-tərbiyə işinin təkmilləşdirilməsinə xüsusi diqqət ayrılır. Bu təhsil ocağında nizam-intizam, müəllim-şagird münasibətləri çox yüksək səviyyədədir. İşini günün tələbləri səviyyəsində qurmağı bacaran və ölkə gənclərinin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olan belə tədris müəssisələrinin olması çox sevindiricidir.

189-190 saylı tam orta məktəbdə uşaq və gənclərin sağlamlığına xüsusi diqqət yetirilir. Məktəbdə fiziki tərbiyə fənninin tədrisi ilə altı nəfər müəllim məşğul olur. Onlara 27 ildir ki, bu sahədə fasiləsiz çalışan, təcrübəli pedaqoq Həsən Vəliyev rəhbərlik edir. Həsən müəllimlə idman zalında görüşdük. Səliqə ilə təmir edilmiş zalda şagirdlərin məşğul olmaları üçün hər şərait var. Etiraf edim ki, orta məktəbdə bu cür yüksək səviyyəli zalın olması məni bir vətəndaş, bir idman jurnalisti kimi çox sevindirdi. Halbuki, bəzi orta məktəblərdə idman zalını qoyaq bir kənara, bədən tərbiyəsi fənninin tədrisi çox aşağı səviyyədə aparılır. Bu bir faktdır ki, hər bir sahədə, rəhbərlikdən çox şey asılıdır. Bu da onu göstərir ki, diqqət, qayğı, məsuliyyət olan yerdə nəticə də var.

Məktəbdə fiziki tərbiyə dərslərinin tədrisi ilə bağlı sualımızı Həsən müəllim belə cavablandırdı: "Uşaq və gənclərin fiziki tərbiyəsi, onların vətənpərvərlik ruhunda böyümələri istiqamətində üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Məktəbimizdə şagirdlərin fiziki tərbiyəsinə xüsusi diqqət yetirilir. Çünki müasir dövrümüzdə ölkəmizin, xalqımızın sağlam gənclərə ehtiyacı vardır. Çalışdığım təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi, təhsil almaları və sağlam ruhda yetişmələri üçün rəhbərlik tərəfindən hər cür şərait və imkan yaradılıb. Gələcək gənclərindir. Xalqımızın, respublikamızın gələcəyini etibarlı əllərə təqdim etmək üçün biz müəllimlərdən böyük məsuliyyət tələb olunur. Məktəbdə mənim kimi peşəkar müəllimlərlə yanaşı, istedadlı gənclər də şagirdlərə fiziki tərbiyənin sirlərini öyrədirlər. Dərslər proqram üzrə həftədə iki dəfə aparılır. Bu ildən bütün siniflərdə idman dərsləri kurikulium sistemi üzrə aparılacaq. Yeni proqram təhsilin müasir tələbləri əsasında tərtib edilib. Köhnə sistemdən fərqli olaraq şagirdlərin qiymətləndirilməsi tamamilə yeni formada həyata keçiriləcək".

## "Müəllim vətəndaş yetişdirməyə çalışır"

Həsən Vəliyev öz peşəsinin vurğunu olan şəxslərdəndir. Polis podpolkovniki olan atasının arzusu onu asayiş keçikçisi görmək olub. Lakin Həsən müəllimin idmana olan həvəsi onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna (indiki ADBTİA) aparıb çıxarıb: "Orta məktəbi Zəngilan rayonunun Mincivan qəsəbəsindəki 36 saylı orta məktəbdə oxumuşam. İdmana böyük həvəsim var idi. 1977-ci ildə Azərbaycan Bədən Tərbiyə və İdman İnstitutuna qəbul olundum. Atam özü kimi mənim də daxili işlər orqanlarında işləməyimi istəyirdi. Amma sonra qərarlı olduğumu görüb dedi: "Oğul, fərqi yoxdur, hansı sahəni seçirsən əsas odur ki, işini sevəsən". Ali məktəbi bitirdikdən sonra təyinatımı Xırdalan şəhərindəki 2 saylı orta məktəbə verdilər. Əsgərlik xidmətimi başa vurduqdan sonra yenidən öz işimə qayıtdım. Yolum uzaq olduğuna görə, bir müddət sonra 189 saylı məktəbə işə düzəldim. İçərişəhərdən Xırdalana gedib-gəlməkdə çətinlik çəkirdim. 1990-cı ildən indiyə kimi orta məktəbdə bədən tərbiyə müəllimi işləyirəm. Artıq 27 ildir ki, uşaq və yeniyetmələrə idmanını sirlərini öyrətməkdən yorulmuram. İşimi çox sevirəm. İşlədiyim müddətdə şagirdlərimizin idmanı sevməsi üçün əlimdən gələni əsirgəməmişəm".

Biz Həsən müəllimlə peşəsinin gözəlliyi, məsuliyyəti barədə söhbət etdik. Həsən Vəliyev "Müəllimlik peşəsi çoxmu çətindir?" sualımıza belə cavab verdi: "Hər bir peşənin öz çətinliyi var. Təbii ki, müəllimlik peşəsinin məsuliyyəti daha çoxdur. Müəllim bilik, savad verir, həyat yollarında düzgün addımlamağı öyrədir, vətəndaş yetişdirməyə çalışır. Fərqi yoxdur, harda olursa olsun, insan öz işini sevməsə, can yandırmasa, nə özünə, nə də cəmiyyətə xeyir verməyəcək".

İdman və fiziki tərbiyənin tədrisi ilə seçilən 189-190 saylı kimi nümunəvi məktəbləri barmaqla saymaq olar. Əksər məktəblərdə ya şərait yoxdur, ya da ki, şagirdlər fiziki tərbiyə fənnindən yayınırlar. Görəsən, məktəblərdə bədən tərbiyə fənnini uşaq və yeniyetmələrə sevdirmək üçün nə etmək lazımdır? Həsən Vəliyevin sözlərinə görə, zor tətbiq etməklə heç bir sahədə müsbət irəliyiş əldə etmək mümkün deyil: "İndiki uşaq və gənclər özləri də görürlər ki, ölkəmizdə idman necə inkişaf edir və təbliğ olunur. İdmançılarımız beynəlxalq yarışlarda uğurla çıxış edir, çoxlu sayda medallar qazanırlar. Onlar şahiddirlər ki, respublikamızda idmançılar necə sevilir və bu şəxslərə necə hörmət olunur.

Bəzi uşaq və gənclər idmanla məşğul olduqlarını bəhanə gətirərək dərslərdən yayınırlar. İnsan həm fiziki, həm də mənəviyyat baxımından güclü olmalıdır. Bütün idman növlərində dəqiqlik mühüm şərtdir. Beyin, təfəkkür güclü olmalıdır ki, idman mübarizəsində də uğur əldə edə biləsən. Güləş, cüdo, gimnastika, futbol və eləcə də, digər idman növlərində idmançının taleyini saniyələr həll edir".

Həsən müəllimin sözlərinə görə, 189-190 saylı orta məktəbin şagirdləri voleybol, basketbol, stolüstü tennis üzrə idman yarışlarında fəal iştirak edir, mükafatalayiq yerlər tuturlar. Milyonların sevimlisi olan futbol idman növü burada daha çox sevilir və təbliğ olunur. Təhsil ocağının yetirmələri spartakiada yarışlarında da yaxından iştirak edir, yüksək nəticələr qazanırlar. Belə ki, 189-190 saylı orta məktəb Azərbaycan Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Olimpiya Oyunlarının tərəfdaşı olan "Coca-cola" şirkətinin birgə layihəsi əsasında həyata keçirilən "Olimpic moves" üzrə basketbol yarışlarında 2016-cı ildə 1-ci, 2017-ci ildə isə 2-ci yeri tutub. Sonra məktəb bu il futbol üzrə Təhsil Nazirliyi, AFFA və Coca-cola şirkətinin birgə layihəsi əsasında təşkil edilən "Məktəbli kuboku" yarışlarının qalibi adına layiq görülüb.

## İdman sahəsində tanınmaq istəyir

Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən biri də gənclərə geniş imkanlar verilməsi, onların idarəçilik və dövlət strukturlarında fəaliyyətinə dəstək göstərməkdir. Bir sözlə, ölkəmizdə gənc kadrlara özünü doğrultması üçün müvafiq şərait yaradılır. Biz bunu haqqında sözü gedən 189-190 saylı məktəbin gənc kadrlarından biri, məktəbin bədən-tərbiyə müəllimi Namiq Cəfərovun timsalında bir daha şahidi olduq.

Namiq Cəfərov haqqında çox yüksək fikirdə olan Həsən Vəliyev onun kimi istedadlı, zəhmətkeş, vətənvərvər gənclərlə fəxr etdiyini deyir. Namiq Cəfərov 1988-ci il iyunun 23-də Bakı şəhərində anadan olub. Bakının Əhmədli qəsəbəsindəki 24 saylı orta məktəbdə təhsil alıb. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirdikdən sonra 2012-ci ildə müsabiqə ilə 189-190 saylı orta məktəbdə işləməyə başlayıb. 29 yaşlı gənc mütəxəsis bakalavr və magistr pilləsini fərqlənmə diplomu ilə bitirib. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində fiziki tərbiyənin metodikası üzrə təhsilini davam etdirir, 4-cü kurs tələbəsidir. Doktorluq dissertasiyası üzərində işləyən Namiq Cəfərov 5 Oktyabr Müəllimlər Günü ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən fəxri diplomla mükafatlandırılıb. O, həm də bu il Səbail rayon Gənclər və İdman İdarəsi tərəfindən "2 Fevral Gənclər Günü" münasibəti ilə rayonun ictimai həyatında fəal iştirakına görə Fəxri fərmana layiq görülüb.

Onun ən böyük arzusu idman sahəsində tanınmış, təcrübəli mütəxəssis kimi yetişməkdir. Namiq müəllim öz sevimli peşəsindən, idman sahəsinə olan marağından danışdı: "Dövlətimiz hər bir sahədə olduğu kimi gənclərə diqqət və qayğı göstərir. Mən çox şadam ki, Həsən Vəliyev kimi təcrübəli, qayğıkeş insandan çox şey öyrənmişəm. Gənclərin hər zaman onlara işin mahiyyətini başa salan, peşəkar, təcrübəli insanların dəstəyinə ehtiyacı vardır.

Mən iyunun 23-də anadan olmuşam. Həmin gün Beynəlxalq Olimpiya Komitəsinin yaranması gününə təsadüf edir. Uşaqlıqdan arzum olub ki, idman və Olimpiya Hərəkatı ilə bağlı sahədə çalışım. Hazırda Azərbaycan Milli Olimpiya Komitəsi və Gənclər və İdman Nazirliyinin gənclər və idmanla bağlı bir sıra layihələrində iştirak edirəm. Milli Olimpiya Komitəsi (MOK) ilə əməkdaşlığım 2015-ci ildən başlayıb. Adıçəkilən qurumun "Gənc liderlərin yetişdirilməsi" layihəsini Həsən müəllimin köməyi ilə 2 il məktəbdə təcrübədən keçirdik. Layihə uğurlu alındığı üçün məni Böyük Britaniyaya göndərdilər. 10 gün ərzində müxtəlif təlimlərdə iştirak etdik. Bu ölkədə diqqətimi cəlb edən pedaqoqların şagirdlərə yanaşma üsulu oldu. Burada fiziki tərbiyə dərsləri əyləncəli, oyun ab-havasında aparılır. Çalışırıq ki, Avropa ölkələrinin idman təcrübəsini millilik prinsipləri əsasında məktəbimizdə də tətbiq edək.

Məktəbdə idman dərslərini tədris etməkdə əsas məqsəd şagirdlərin fiziki cəhətdən sağlam olmasını təmin etməkdir. Əlbəttə, biz idmançı yetişdirə bilmərik, bizim vəzifəmiz ancaq onların savadlı, geniş dünyagörüşünə malik, sağlam ruhda yetişmələrinə kömək etməkdir. 20 faiz torpaqlarımız düşmən işğalında olduğu bir vaxtda fiziki cəhətdən sağlam, qüvvətli, həmçinin vətəninə, torpağına bağlı gənclərə ehtiyac var."

Namiq Cəfərov həddindən artıq enerjili insandır. Peşəsini çox sevən bu gənc müəllim daim yenilik axtarışındadır. Namiq müəllim deyir: "Ötən ilin dekabr ayında məktəbin fiziki tərbiyə müəllimlərinin təşəbbüsü ilə Azərbaycan Atletika Federasiyasına (AAF) müraciət etdik. Federasiyanın razılığı əsasında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar məktəbimizdə "Məktəbin ən yaxşı atletisən" şüarı altında yarış təşkil etdik. Yarışlarda iştirak edən 200 şagird arasından 50 nəfər (25 oğlan, 25 qız) qalib seçildi. AAF-nın prezidenti Çingiz Hüseynzadə və baş katib Məhərrəm Sultanzadənin köməkliyi ilə Respublika Olimpiya Mərkəzində həmin 50 şagird üçnövçülük yarışlarında özlərini sınadılar. Yarışda qalib gələn 4 nəfər şagird federasiya tərəfindən yaşlarına uyğun məşqçilik kurslarına cəlb edildi. Biz həmin layihəni kiçikyaşlı şagirdlər arasında da təşkil etməyi planlaşdırırıq. Bugünlərdə məktəbimizin komandası atletika idman növü üzrə Azərbaycan birinciliyində (2003-2004-cü illər təvəllüdlülər) 3-cü yeri tutub

Biz məktəbdaxili yarışlar da təşkil edirik. Hər il ənənəvi olaraq məktəbdə 5 Mart Bədən Tərbiyəsi Günü ilə əlaqədar futbol yarışları keçirilir. Ölkə rəhbərinin 2005-2015-ci illərdə futbolun inkişafı ilə bağlı Fərmanına uyğun olaraq Təhsil Nazirliyi və AFFA-nın dəstəyi ilə 2009-2010-cu illərdə "Məktəbli Kuboku" yarışlarında ilk iştirak edən məktəblərdən biri də 189-190 saylı orta məktəb olub. Məktəbimizin 10-cu sinif şagirdi Fərid Ağayev karate (wako) üzrə gənclər arasında dünya və Avropa çempionu tituluna layiq görülüb. Fərid Ağayev dərslərini də çox əla oxuyur, nümunəvi şagirddir".

Heç kimə sirr deyil ki, ağır çantalardan istifadə edilməsi şagirdlərdə skalioz kimi ciddi onurğa xəstəliyinin yaranmasına səbəb olur. Bu problemin qarşısını almaq üçün 189-190 saylı orta məktəbdə yuxarı sinif şagirdləri elektron dərsliklərdən istifadə edirlər və bu, çox yaxşı haldır.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlirik ki, təlim-tərbiyənin düzgün aparıldığı təhsil ocaqlarında gənc nəslin fiziki və mənəvi inkişafı məsələsi diqqət mərkəzindədir. Dövlətimizin əsas məramı gənc nəslin xalqımıza layiq şəkildə, sağlam, güclü, vətənpərvər ruhda tərbiyəsidir. Bu məsələnin düzgün həlli üçün ailə, məktəbəqədər tərbiyə müəssisələri, orta məktəblər, ali təhsil ocaqlarının birgə və səmərəli fəaliyyəti istənilən nəticənin alınmasında önəmli rol oynayır.

**Səadət Hakıyeva**







*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Avropa Şurasının Antidopinq Konvensiyasının və Azərbaycan Milli Antidopinq Agentliyinin nümayəndələri arasında görüş keçirilib



Fevralın 6-da Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) Avropa Şurasının Antidopinq Konvensiyasının və Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) nümayəndələri arasında görüş keçirilib.

Görüşdə Avropa Şurasının Antidopinq Konvensiyasının mütəxəssisləri - Dünya Antidopinq Agentliyinin direktor müavini Tom Mey və nümayəndələri Rafal Piekota, Satu Heikkinen, Florian Kavel, Lien Kozlovska, Olimpia Karavasili, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev, həmçinin AMADA-nın baş direktoru Şəfəq Hüseynli iştirak ediblər.

Görüşdə Azərbaycandakı mövcud antidopinq qanunvericiliyi, siyasəti və quruluş vəziyyəti təhlil edilib, MOK və AMADA arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan Milli Olimpiya Komitəsi və Azərbaycan Milli Antidopinq Agentliyi 2016-cı ildə imzalanmış memorandum əsasında idmançılara ciddi ziyan vuran və güclü təsir edən maddələrin istifadə olunmasının qarşısını almaq məqsədilə sıx əməkdaşlıq edir.

Görüşdə həm də Milli Olimpiya Komitəsinin "2018-Antidopinq ili" layihəsi nəzərdən keçirilib. Bura idmançılar və məşqçilər üçün seminarların, media nümayəndələri ilə açıq görüşlərin, müxtəlif idman federasiyaları ilə təlimlərin təşkili daxildir.

Sonda mütəxəssislərin layihə və Azərbaycandakı antidopinq vəziyyəti ilə bağlı sualları cavablandırılıb.



# Avropa Şurasının Antidopinq Konvensiyasının monitorinq qrupu Milli Məclisdə olub

Milli Məclisdə gənclər və idman komitəsinin üzvləri ölkəmizdə səfərdə olan Avropa Şurasının Antidopinq Konvensiyası üzrə monitorinq qrupu ilə görüşüblər.

Komitənin sədri Fuad Muradov idman sahəsində mühüm nailiyyətlərə imza atan, mötəbər beynəlxalq yarışlara ev sahibliyi edən Azərbaycanda antidopinqin vacibliyinin daim diqqətdə saxlanıldığını bildirib.

Qeyd edilib ki, ölkəmiz müvafiq beynəlxalq konvensiyalarda iştirak edir. Antidopinqlə bağlı milli qanunvericilik bazası yaradılıb, 2016-cı ildə müvafiq qanun qəbul olunub. Dövlət qurumları milli və regional antidopinq təşkilatları ilə sıx əməkdaşlıq şəraitində çalışır, dopinqdən istifadəyə qarşı mübarizədə ciddi addımlar atılır. Bu, idmançıların sağlamlığının qorunması baxımından da olduqca vacibdir.

Görüşdə Ümumdünya Antidopinq Agentliyi üzrə ad-hoc Avropa Komitəsinin (CAHAMA) sədri, Polşanın idman və turizm naziri ofisinin direktor müavini Rafal Piechota idman sahəsində Azərbaycan qanunvericiliyinin müsbət nailiyyətləri olduğunu xüsusi vurğulayıb. O, səfərin məramını açıqlayaraq bildirib ki, burada həyata keçirilən antidopinq proqramları və layihələri ilə tanışlıqdan sonra hesabat hazırlanacaq və monitorinq qrupunun mayda keçiriləcək iclasına təqdim olunacaq.

Ümumdünya Antidopinq Agentliyinin Milli və Regional Antidopinq Təşkilatları ilə əlaqələri üzrə direktor müavini Tom May qeyd edib ki, müvafiq qanunların qəbul olunaraq həyata keçirilməsində, əməkdaşlıq əlaqələrinin qurulmasında Azərbaycanda rast gələnən sürət heyranlıq yaradır. Bu baxımdan Azərbaycan digər ölkələrə nümunə ola bilər.

Söhbət zamanı Avropa Şurası İdman Konvensiyaları bölməsinin Antidopinq Konvensiyası üzrə layihə meneceri Liene Kozlovska, deputat Rauf Əliyev fikirlərini bölüşüblər.

Monitorinq qrupu ilə görüşdə Azərbaycandakı antidopinq qanunvericiliyi, siyasəti və mövcud vəziyyət təhlil edilib.

## *Beynəlxalq Boks Forumu Bakıda keçirilə bilər*

2019-cu ildə Beynəlxalq Boks Forumu Bakıda keçirilə bilər. Birinci Beynəlxalq Boks Forumu bu il fevralın 1-dən 4-dək Soçidə keçirilib. Forum çərçivəsində Murat Qassiyev ilə kubalı Yunier Dortikos arasında Beynəlxalq Boks Superseriyasının (WBSS) yarımfinal qarşılaşması olub. Rusiyalı idmançı bu döyüşdə qalib gələrək İBF və WBA versiyası üzrə birinci ağır çəki dərəcəsində çempion adını qazanıb.

Rusiya Boks Federasiyasının baş katibi Umar Kremlyov bu barədə deyib: "Çin və Azərbaycandan təkliflər almışıq. Bu forumu hamı bəyənib, o, hər il keçiriləcək. Çox xoşdur ki, bu, Rusiyanın təşəbbüsü olduğundan, bütün hüquqları bizə məxsusdur. Düşünürəm ki, 22-iyul boks günündə biz bayrağı təntənəli şəkildə növbəti forumun keçiriləcəyi ölkəyə təqdim edəcəyik. Bakı forumu da fevralın əvvəlində təşkil olunacağı ehtimalı var. Lakin Çin də yaxşı şərtlər təqdim edir. Biz hələ ki, Bakını gözdən keçirir. Bu şəhər çoxlarını qane edir. Mən bütün beynəlxalq federasiyaların prezidentləri ilə, həmçinin forumun sizması Gennadi Qolovkinlə məsləhətləşmişəm".

## Lisenziya qaydaları açıqlanıb

2019-cu ildə Bakıda keçiriləcək Avropa Yeniyetmələrinin Olimpiya Festivalı çərçivəsində keçiriləcək voleybol yarışlarına lisenziya qaydaları açıqlanıb. Paytaxtımızda təşkil olunacaq turnirə vəsiqələr bu il keçiriləcək qitə birinciliklərində veriləcək.



Festival üçün lisenziya xarakterli yarışlar Çexiya və Slovakiya, həmçinin Bolqarıstanda təşkil olunacaq. Zlin (Çexiya) və Puxov (Slovakiya) şəhərlərinin birgə ev sahibliyi edəcəyi 18 yaşınadək oğlanlar arasında Avropa çempionatı aprelin 7-15-də keçiriləcək. Həmin ayın 13-21-də Bolqarıstanın paytaxtı Sofiyada 17 yaşınadək qızlar mübarizə aparacaqlar. Hər iki yarışda ilk 7 pillədə qərarlaşacaq ölkələr Bakı-2019-da iştirak etmək hüququ qazanacaq.

Həm qızlar, həm də oğlanların yarışında 8-ci komanda təşkilatçı kimi Azərbaycan olmalıdır. Əgər yığmamızdan hansısa bu yarışdan imtina edərsə, Avropa birinciliyinin 8-cisi də festivalda oynayacaq.

## Parisdən bürünc medal

Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" yarışı keçirilib. Beynəlxalq turnirdə 71 ölkədən 399 cüdoçu mübarizə aparıb. Yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Milli komandamız mötəbər turnirdə bir bürünc medal qazanıb. 78 kq çəki dərəcəsində yarışan qadın cüdoçumuz İrina Kindzerska Paris turnirində 3-cü yeri tutub. ABŞ, Belarus və Fransa idmançılarına qalib gələn təmsilçimiz yalnız Yaponiya cüdoçusuna uduzaraq ölkəmizə bürünc medal qazandırıb.



## Millimiz beynəlxalq turnirin qalibi oldu

Fevralın 8-10-da İranın Sarab şəhərində beynəlxalq basketbol turniri keçirilib. Turnirdə U-18 milli yığma komandamızla yanaşı, İranın U-18 millisi, İraqın Süleymaniyyə və Sarabın basketbol komandaları iştirak edib. Samit Nuruzadənin yetirmələri turnirin ilk qarşılaşmasında Süleymaniyyə şəhərinin basketbolçularına 60:69 hesabı ilə məğlub olublar. Məğlubiyyətdən nəticə çıxaran komandamız turnirin favoriti olan İranın U-18 millisini üstələyib - 75:71. Ev sahibləri ilə keçirilən sonuncu görüş isə gərgin mübarizə ilə yadda qalıb. Bu oyunda komandamız yüksək səviyyəli oyun sərgiləyərək rəqibinə heç bir şans verməyib - 90:72.

Beləliklə, son 7 ildə U-18 yığmamız ilk dəfə olaraq İranın U-18 yığmasını məğlub edərək Sarabda keçirilən ənənəvi beynəlxalq turnirin qalibi olub.

## "Buta Golden" kuboku yarışında qaliblər müəyyənləşib



Binə Atçılıq Mərkəzinin qapalı manejində bu ilin ilk konkur yarışı keçirilib. Yarış "E", "M" və "S" kateqoriyaları üzrə təşkil olunub. "Buta Golden" kuboku uğrunda mübarizədə Azərbaycanın müxtəlif atçılıq klublarının yeniyetmə və yetkin yaş qrupları üzrə idmançıları iştirak ediblər. "E" kateqoriyası üzrə maneələrin hündürlüyü 80-85 sm olan yarışda birinci yeri atçılıq məktəbinin idmançısı Səməd Əliverdiyev "Tibet" ləqəbli atla, ikinci yeri isə eyni məktəbin təmsilçisi Ramil İbrahimov "Light Limerick" ləqəbli atla qazanıb. Üçüncü yerə "Sərhədçi" klubunun idmançısı Dünyamalı Qurbanbəyov "David" ləqəbli atla layiq görülüb.

"M" kateqoriyası üzrə maneələrin hündürlüyü 120-125 sm olan yarışda ilk pilləyə "Murad" klubunun idmançısı Kərim Abdullayev "Clima" ləqəbli atla yüksəlib. İkinci yerə "Sərhədçi" klubunun idmançısı Sənan Məmmədov "Misir" ləqəbli atla, üçüncü yeri isə "Buta Golden" klubunun idmançısı "Yahor Morotski Astrello" ləqəbli atla qazanıb.

Günün sonuncu "S" kateqoriyası üzrə maneələrin hündürlüyü 130-140 sm olan final yarışında birinci yeri və "Buta Golden" Kubokunu "Sərhədçi" klubunun idmançısı Seyid Musayev "Nabab De Belou" ləqəbli atla qazanıb. İkinci pillədə "Murad" klubunun idmançısı Kərim Abdullayev "Clima" ləqəbli atla, üçüncü yerdə isə "Elite Horse and Polo Club"-un idmançısı Elmar Abdullayev "Cera 59" ləqəbli atla qazanıb.

## Təmsilçimiz Buenos-Ayresdə mübarizə aparacaq



Fevralın 12-də Çexiyanın Xodonin şəhərində stolüstü tennis üzrə gənclərin Olimpiya Oyunlarının Avropa təsnifat turniri start götürüb.

33 oğlan və 29 qız tennisçinin iştirak etdiyi yarışda qalib gələn 4 idmançı cari ildə Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək gənclərin Olimpiya Oyunlarına lisenziya qazanacaq.

Qeyd edək ki, artıq 1 idmançımız gənclərin Olimpiya Oyunlarına lisenziya əldə edib.

## "Nur" komandası "Azəryol"u məğlub edib

Qadın həndbolçular arasında Azərbaycan çempionatında XI turun oyunları keçirilib. Mingəçevirdə yerləşən "Kür" Olimpiya İdman Mərkəzində son ölkə çempionu "Nur" kollektivi "Azəryol" komandasını qəbul edib. Gözlənildiyi kimi gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən görüşün ilk hissəsi ev sahiblərinin üstünlüyü ilə başa çatıb - 11:9. Fasilədən sonra vəziyyəti dəyişməyə çalışan qonaqlar çox çalışsalar da, istəklərinə nail ola bilməyiblər - 11:11. Beləliklə, ümümi nəticədə Mingəçevir təmsilçisi 22:20 hesabı ilə qalib gəlib.

Bu nəticələrdən sonra aktivlərində 16 xal olan "Azərsu" və "Azəryol" komandaları turnir cədvəlində 1-2-ci yerləri bölüşürlər. "Qarabağ" kollektivi 13 xalla üçüncü, ondan bir xal geri qalan "Nur" həndbolçuları isə dördüncü pillədə qərarlaşıblar. "Gənclər Birliyi" 4 xalla beşinci, "İdman Akademiyası"nın yetirmələri 2 xalla sonuncu pillədədir.

## Yarışların vaxtı dəyişdirildi

2018-ci ildə keçiriləcək Formula-1 üzrə bütün Qran-pri yarışlarının start saatı dəyişdirilib. Burada məqsəd



yürüşlərin televiziya auditoriyasını artırmaqdır. Əvvəllər mərhələlərin çoxunda yaşıl işıqlar yerli vaxtla saat 14:00-da yanırdısa, indi bu, 14:10-da baş verəcək. Ələvə 10 dəqiqə kommersiya kanallarının rahatlığı üçün edilib. İndi onlar Qran-pridən əvvəl daha çox reklam verə biləcəklər.

Aprelin 27-29-də keçiriləcək Azərbaycan Qran-pri yarışları isə Bakı vaxtı ilə saat 16:10-da başlayacaq.

## "Jamiroquai" qrupu Bakıya gəlir

Gərgin mübarizə və əyləncə vəd edən 2018 Formula-1 Azərbaycan Qran-pri yarışlarının ilk günündə



tamaşaçılar qarşısına "Jamiroquai" musiqi qrupu çıxacaq. Məlumat üçün bildirək ki, caz musiqisinin təmsilçisi olan Cey Key tərəfindən 1992-ci ildə Londonda yaradılan bu qrup qısa müddətdə məşhurlaşaraq dünyanın ən uğurlu musiqi qruplarından birinə çevrilib. 25 illik fəaliyyəti ərzində 27 milyondan çox albom satan qrup "Grammy", "İvor Novello" və "MTV Moonmen" mükafatlarına layiq görülüb, Böyük Britaniyada 13 dəfə nominasiyaya layiq görülüb. 2017-ci ildə Jamiroquai musiqi qrupu "Automaton" adlı yeni albomunu çıxarıb. Dünya ulduzlarının iştirakı ilə təşkil olunacaq axşam konsertləri ilk dəfə olaraq Kristal Zalında keçiriləcək.

BŞH-nin icraçı direktoru Arif Rəhimov Jamiroquai qrupunun Bakıya gəlişinə belə münasibət bildirib: ""Jamiroquai" qrupunu Bakıda qarşılayacağımız üçün çox şadıq. Dünyada özünəməxsus səsi və yüksək enerjili performansı ilə məşhurlaşmış çox az musiqi qrupu var. Cey Keyin rəhbərliyindəki bu qrup musiqi tarixində istedadlı və nadir sayılan xüsusiyyətlərə malik belə qruplardan biridir və onun özü də avtomobil həvəskarıdır".

*İdman və diplomatiya*

# İdman diplomatiyası beynəlxalq münasibətlərdə mühüm amili kimi

***Son onilliklərdə qlobal inkişafın mədəni paradiqması kontekstində dünya siyasətində humanitar meyarın təsdiqi prosesi müşahidə olunur. Müasir beynəlxalq münasibətlərdə humanitar problemlər xüsusi əhəmiyyət kəsb edir. Onların həlli beynəlxalq münasibətlərin vəziyyətindən, onlarda mövcud olan gərginlik səviyyəsindən, habelə, bu prosesə yalnız dövlətlərin rəsmi nümayəndələrinin deyil, həm də ictimaiyyət nümayəndələrinin, o cümlədən idman ictimaiyyətinin cəlb edilməsindən asılıdır.***

İdman qlobal məfhum kimi, mənşəyindən, təhsilindən, dini etiqadından, yaxud iqtisadi vəziyyətindən asılı olmayaraq insanları birləşdirmək qabiliyyətinə malikdir. Müasir dünyada idman güclü potensiala və imkanlara malik siyasi təsir vasitəsidir. Müxtəlif ölkələr bu alətdən məqsədlərini reallaşdırmaq üçün fərqli şəkildə istifadə edirlər. Bu gün idman beynəlxalq münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilib. O, beynəlxalq əməkdaşlığın fəallaşdırılması vasitəsi, münaqişələrin qarşısının alınması və mədəniyyətlərarası dialoqun qurulması aləti kimi çıxış edir. İdman universal olduğundan, irqindən, dini etiqadından, ideoloji baxışlarından asılı olmayaraq, hamı üçün anlaşılandır və bu da onun əhəmiyyətini artırır.

Son onilliklərdə xalqlar arasında anlaşmanın əldə edilməsinə, idman vasitəsilə əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş idman diplomatiyası bu sahənin idmanın beynəlxalq münasibətlər sisteminə cəlb edilməsi ilə bağlıdır.Müasir dünyada daxili və xarici siyasət sahəsində dövlətlərin strateji vəzifələrini həll etməyə qadir olan humanitar və vətəndaş cəmiyyəti institutu kimi idman diplomatiyasının fəal şəkildə formalaşması prosesi getməkdədir.

Müasir mürəkkəb və ziddiyyətli dünyada idman dinc əməkdaşlıq modelinin imkanlarını və üstünlüklərini nümayiş etdirərək, dərin simvolik funksiya daşıyır. Məhz onun sülhyaradıcı potensialı səbəbindən idman BMT-nin fəaliyyətində inkişafın və sülhün təmin edilməsi aləti kimi nəzərdən keçirilir. İdman fəaliyyəti sülh mədəniyyətinin dəyərlər sistemində mühüm yer tutan demokratik norma və prinsiplərə istiqamətlənmiş davranışın tərbiyə olunmasına təkan verir, tolerantlıq, qarşılıqlı hörmət və zorakılıqdan imtina nümunəsi kimi çıxış edir.

Beynəlxalq mədəni-humanitar əməkdaşlıq sahəsində vəzifələr müəyyən olunarkən xüsusi vurğulanır ki, idman və bədən tərbiyəsi insanlar arasında anlaşmanın inkişaf etdirilməsinin və xoş məramın ifadəsinin mühüm vasitəsidir. "Siyasətdən kənarda" olmasına baxmayaraq, idman güclü siyasi potensiala malikdir və beynəlxalq münasibətlərdə mühüm rol oynayır. Sülh və inkişaf alətlərindən biri olan idman yerli, milli və beynəlxalq səviyyələrdə həmrəyliyin, dözümlülüyün və sosial inteqrasiyanın möhkəmləndirilməsinə təkan verir. Komanda ruhu, dürüstlük, intizam, rəqibə və oyun qaydalarına hörmət kimi idman dəyərləri bütün dünyada qəbul olunur və dinc yanaşı yaşamanın təşviqi üçün istifadə oluna bilər.

İdman BMT-nin sistemində beynəlxalq münasibətlərin aktual problemləri, ilk növbədə, sülh və inkişaf problemi haqqında təbliğatın və ictimai məlumatlılığın yüksəldilməsinin unikal və güclü aləti kimi nəzərdən keçirilir. Yerli, regional və qlobal səviyyələrdə idmandan təxirəsalınmaz humanitar yardımın göstərilməsindən tutmuş uzunmüddətli inkişaf layihələrinə qədər bir çox hallarda istifadə olunur. Bu sahənin ən böyük faydası şəxsiyyətin inkişafı, sağlamlığın möhkəmləndirilməsi, gender bərabərliyinin gücləndirilməsi, sosial inteqrasiya və ictimai kapitalın inkişafı, münaqişələrin qarşısının alınması və nizamlanmasında, təbii fəlakətlərdən sonra normal həyatın bərpasında və iqtisadi inkişafda təzahür edir.

Müasir dövrdə beynəlxalq münasibətlərdə idmanın özünü təsdiq etməsinin dörd formasına daha böyük tələbat duyulmaqdadır:

1. İnkişaf aləti kimi;
2. "Yumşaq güc" aləti kimi;
3. Multikultural dialoq və yaxınlaşma aləti kimi;
4. İdman beynəlxalq münasibətlərdə sülhün təmin edilməsi aləti kimi.

Beynəlxalq münasibətlərdə idman diplomatiyasının xarakteri və məzmunu son onilliklərdə əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Müasir idman diplomatiyası dövlətlərin vətəndaş cəmiyyəti institutları səviyyəsində məlumat və ideyalar mübadiləsi vasitəsilə bir-birinin ictimai rəyinə qarşılıqlı təsirini nəzərdə tutur. Hazırda beynəlxalq münasibətlərdə idman diplomatiyasının rolunun güclənməsi aşağıdakı səbəblərlə şərtlənir:

- Ənənəvi diplomatiyada baş verən coşğun dəyişikliklər, yalnız dövlətlərin qarşılıqlı fəaliyyətini nəzərdə tutan klassik diplomatiya modelinin müasir diplomatik fəaliyyətin aspektlərindən birinə çevrilməsi, ənənəvi diplomatiyanın müasir reallıqlara adaptasiya məcburiyyətində qalması;
- İdman təşkilatlarının və idman növlərinin sayının artması, onların təsirinin güclənməsi, ümumi dəyərlər bazasından idmanla diplomatiyanın yaxınlaşması, açıqlığa, tolerantlığa, sülhə istiqamətlənmə;
- Humanitar texnologiya və vətəndaş cəmiyyətinin institutu kimi idman diplomatiyasının dövlətlərin daxili və xarici siyasət sahəsində strateji vəzifələrini həll etmək qabiliyyəti.



Müasir beynəlxalq münasibətlərdə idman diplomatiyası idman ictimaiyyəti nümayəndələrinin bir-biri və rəsmi hakimiyyət orqanları ilə qeyri-rəsmi qarşılıqlı fəaliyyətinin forması kimi çıxış edir. O, hamı tərəfindən tanınan prinsip və normalar əsasında reallaşdırılmalıdır. Həmin prinsip və normalara: ümumbəşər sivilizasiyasının vahid əsasının tanınması; qarşılıqlı təhlükəsizlik; digər sivilizasiyaların və dövlətlərin inkişaf imkanlarının pozulmaması və onlara təhdidlərin yaradılmaması; müasir dünyanın çoxqütblülüyü, vahidliyi və müxtəlifliyi; dövlətlərin beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə görə xüsusi məsuliyyəti; xalqların özünəməxsusluğunun bütün aspektlərinin müdafiəsi aiddir.

Son illərdə dünya miqyaslı idman hadisələrinin populyarlaşması, habelə idmandan siyasi məqsədlərlə istifadə edilməsinin çoxəsrlik tarixi fonunda idman diplomatiyasının daha geniş tədqiqinin əhəmiyyəti artır. Milli səviyyədə bədən tərbiyəsi və idmanın inkişafı məsələlərinə daha çox diqqət yetirilir, dünya siyasətində beynəlxalq idman təşkilatlarının rolu genişlənir, bu və ya digər dövlətin dünya siyasətinə "yumşaq güc" mövqeyindən təsirinin güclənməsi mexanizmləri daha fəal surətdə müzakirə olunur.

İdman diplomatiyasının ən geniş yayılmış anlayışı aşağıdakı kimi ifadə olunur: dövlətlərin, hökumətlərin, xarici siyasət vəzifələrinin həyata keçirilməsi üzrə xüsusi orqanların beynəxalq idman tədbirlərinin təşkili, keçirilməsi və komandalar, idmançılar, məşqçilərlə həmin tədbirlərdə iştirak və nailiyyətlər əldə etmə vasitəsilə dövlətlərin xarici siyasət vəzifələrini həyata keçirməsi.

İdman diplomatiyası ölkənin "yumşaq güc" vasitəsilə təsirinin artırılmasının perspektivli istiqamətidir. Dövlətin idman mübadilələrinin təşkili çərçivəsində minimum iştirakından başlayaraq böyük idman hadisələrinin siyasi səbəblərdən boykot edilməsinə qədər idman diplomatiyası müəyyənliklə yanaşı, idmanın universal məqsədlərinin pozulması ilə bağlı bəzi etik xarakterli şübhələrə də rəvac verə bilər. İdman diplomatiyasının inkişaf perspektivlərinə gəlincə, mövcud informasiyaların təhlili aşağıdakı nəticələrə gəlməyə imkan yaradır. Böyük idman yarışlarının təşkilatçısı olan ölkələrin nüfuzunun artması və xarici siyasi təsirin komponenti kimi "yumşaq güc" amilinin nəzəri təhlili, idman diplomatiyasına marağın daha da güclənəcəyini proqnozlaşdırmağa imkan verir. İdman sahəsində müasir dövlət siyasətinin tədricən təkmilləşdiriləcək cəmiyyətin birliyinə təsir göstərəcəyi istisna olunmur.



Hazırda Azərbaycan Respublikasında cəmiyyətin müasir siyasi mədəniyyətinin mühüm tərkib hissəsi kimi idman diplomatiyasının inkişaf etdirilməsinə, xarici siyasət fəaliyyətinə cəlb edilməsinə böyük önəm verilir. İdman diplomatiyasının fəal tətbiqində məqsəd ölkənin müsbət obrazının yaradılması, onun beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi, "yumşaq güc"ün tətbiqi sisteminin təkmilləşdirilməsi, bu istiqamətdə həm beynəlxalq təcrübəni, həm də milli özünəməxsusluğu nəzərə alan optimal fəaliyyət formalarının axtarılıb tapılması, mövcud normativ bazanın daha da təkmilləşdirilməsidir.

Azərbaycan Respublikasında idman diplomatiyasının siyasi tətbiqi təcrübəsi özünün dinamizmi ilə seçilir. Azərbaycanın idman diplomatiyası daim inkişafdadır. Azərbaycan Respublikasında idman potensialının gücləndirilməsinə keçən əsrin 90-cı illərinin ortalarından etibarən xüsusi diqqət yetirilir. 1997-ci ildə İlham Əliyev Azərbaycan MOK-un prezidenti seçildikdən sonra ölkədə Olimpiya Hərəkatının və idmanın sürətli inkişafı reallığa çevrildi. Nəticədə idman diplomatiyası Azərbaycan Respublikasının xarici siyasətində mühüm təsir alətlərindən biri kimi çıxış etməyə başladı. 2015-ci ildə Bakıda Birinci Avropa Oyunlarının keçirilməsi bu istiqamətdə atılmış mühüm addım kimi Azərbaycan Respublikasının xarici siyasət vəzifələrinin həyata keçirilməsi baxımından müsbət nəticələr verdi. Bakıda I Avropa Oyunlarının keçirilməsi Azərbaycan Respublikasının idman diplomatiyasının reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir, çünki bu hadisə ölkənin "yumşaq güc"ünün səviyyəsinin, onun imicinin və nüfuzunun yüksəldilməsinə təkan vermişdir. Bu gün Bakı şəhəri artıq dünya miqyasında mötəbər idman tədbirlərin keçirildiyi məkan kimi tanınır. Bir tərəfdən ölkəmizin və Bakı şəhərinin infrastrukturu, digər tərəfdən isə dövlətimizin xoşməramlı siyasəti bu kimi tədbirlərin keçirilməsi üçün mühüm zəmin yaradır. Birinci Avropa Oyunlarının ardınca Formula-1 Avropa Qran-pri yarışlarının Bakıda keçirilməsi 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə təşkilinin davamı idi. Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi Azərbaycan Respublikasının idman diplomatiyasının həyata keçirilməsi istiqamətində atılan növbəti uğurlu addım oldu.

Hazırda ölkəmizdə həm peşəkar, həm də kütləvi idmanın populyarlaşdırılmasına yönəlmiş siyasət yürüdülür, sağlam həyat tərzinin təbliği və əhalinin sağlamlığının möhkəmləndirilməsi uzunmüddətli vəzifə kimi qarşıya qoyulur. Reallaşdırılan siyasət sayəsində milli birliyin möhkəmləndirilməsi və ölkənin beynəlxalq imicinin daha da yaxşılaşdırılması təmin olunur. "Sportfacilities" jurnalının icmalında qeyd olunur ki, son illərdə Azərbaycan Respublikası ölkədə keçirilən dünya səviyyəli yarışların sayına görə liderlər sırasında yer alır.

Siyasi məqsədlərin həyata keçirilməsi üçün idman diplomatiyası metodlarından istifadənin populyarlığının artması ilə əlaqədar dövlətlər öz imicini və nüfuzunu yüksəltmək məqsədilə kütləvi idman tədbirləri vasitəsilə daha çox sayda təsir mexanizmindən istifadə edir. Bu gün Azərbaycan idman diplomatiyasının reallaşdırılması sahəsində böyük perspektivlərə malikdir. Ölkəmizin dünya miqyaslı idman hadisələrində fəal iştirakı, idman sahəsində qanunvericiliyi daha da təkmilləşdirilməsi idman diplomatiyasında qazanılan uğurları nümayiş etdirir.

***Əlimusa İbrahimov,***
***Siyasi elmlər üzrə fəlsəfə doktoru***
***Bakı Dövlət Universitetinin***
***Beynəlxalq Münasibətlər fakültəsinin***
***müəllimi***

## Birincilikdə 40 idmançı qüvvəsini sınayıb

Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində 15-17 yaşlı gənclər arasında keçirilən sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub. Tədbirdə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikasının Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxış edərək, yarışın keçirilmə qaydaları haqqında danışıblar. Naxçıvan Muxtar Respublikasının Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 8 çəki dərəcəsi üzrə 40 idmançı qüvvəsini sınayıb. Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarıda Turqay Allahverdiyev, Hüseyn Əhmədli, Kəramət Xudiyev, Abbas Nəzərəliyev, Muxtar İbrahimov, Anar Həsənov, Rəvan Bayramov və Qoca Əhmədov müvafiq çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi adını qazanıblar. Hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

## "Pəhləvan" İK-in yetirmələri uğurla yarışıblar

Buyaxınlarda Hövsan Olimpiya Kompleksində sərbəst və yunan-Roma güləşi üzrə gənclər arasında Bakı şəhər birinciliyi keçirilib. 1998-2000-ci illər təvəllüdlü idmançıların iştirak etdiyi yarışda "Pəhləvan" idman klubunun sərbəst və yunan-Roma güləşi üzrə 14 idmançısı qüvvəsini sınayıb. Sərbəst güləş üzrə yarışlarda klubun yetirmələrindən Asxab Həmidov (92 kq) birinci yerə layiq görülüb. Surxay Həmidov (125 kq), Murad Muradov (79 kq) ikinci, Elmar Cəlilov (79 kq) isə üçüncü yeri tutublar. Yunan-Roma güləşçilərinin yarışında Cavad Əkbərli (55 kq), Müseyib Rəhimov (60 kq) üçüncü yerə sahib çıxıblar.

## Atletlərimiz Ukraynada hazırlıq keçirlər

Ağırlıqqaldırma üzrə qadınlar və kişilərdən ibarət yığma komandalarımızın üzvləri bu il üçün ölkə xaricindəki ilk təlim-məşq toplanışına yollanıblar. Ukraynanın Xmelnitski vilayətinin Kamenets-Podolsk şəhərində keçirilən hazırlıq fevralın 23-də başa çatacaq.

Qeyd edək ki, yığmamızın bu toplanışında əsas məqsədi yarışlara daha intensiv və səmərəli hazırlaşmaq, komandanı fərqli iqlim və məşq şəraitində sınaqdan keçirməkdir.

## Koneyev Ramazan Sabir oğlu



Azərbaycanın idman ictimaiyyətinə ağır itki üz verib. Azərbaycan boks məktəbinin veteranı Ramazan Koneyev 81 yaşında vəfat edib.

Onu tanıyanların yaddaşında mahir rinq ustası, təcrübəli mütəxəssis, qayğıkeş insan kimi qalan Ramazan Koneyev ömrünün çox hissəsini sevdiyi bu idman növünə həsr edib. O, boksla gənc yaşlarından məşğul olmağa başlayıb. Ötən əsrin 50-ci illərində boks idman növünün inkişafına töhfələrini verən, bu sahədə nailiyyətlər qazanan Ramazan Koneyev 1936-cı ildə Rusiyanın Həştərxan şəhərində anadan olub. Bakıya köçdükdən sonra 1951-1953-cü illərdə burdakı 8 saylı Texniki Peşə Məktəbində təhsil alıb. 1952-ci ildə "Burevestnik" İdman Cəmiyyətində idman ustalığını artıran gənc idmançı tez bir zamanda respublikanın güclü boksçuları sırasına daxil olub. Ramazan Koneyev dəfələrlə Azərbaycan birinciliyinin qalibi, ümumittifaq, "Burevestnik" İC Mərkəzi Şurasının bürünc, SSRİ Silahlı Qüvvələri çempionatının isə qızıl medalına layiq görülüb. 1955-ci ildə Bakıda Neftayırma zavodunda boks bölməsinə məşqçi kimi rəhbərlik edib. Sonralar Bakı Yüngül Sənaye Texnikumunda direktor müavini, Azərbaycan Elmlər Akademiyasının neft-kimya sənayesi üzrə tədqiqat zavodunda sex rəisi vəzifəsində çalışıb.

Ömrünün sonuna kimi Bakıda keçirilən boks yarışlarının hakimlər korpusunda fəal iştirak edib, gənc idmançıların inkişafına və tərbiyəsinə öz töhfəsini verib.

Qocaman rinq ustası Ramazan Koneyevin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

***Azərbaycan Boks Federasiyası***

F U T B O L

# Millimiz daha iki rəqiblə qarşılaşacaq

## Qurban Qurbanov hər iki komandaya qol vurub

*Azərbaycan milli komandasının yoldaşlıq görüşü üçün daha iki rəqibi müəyyənləşib. Yığmamız gələn ay Belarus millisi, iyun ayında isə Latviya yığması ilə qarşılaşacaq.*

*Martın 27-də Antalyada Makedoniya millisi ilə qarşılaşacaq Qurban Qurbanovun yetirmələri bundan 4 gün əvvəl belarusluları qəbul edəcək. Bakı Olimpiya Stadionunda təşkil olunacaq görüş Qurban Qurbanovun doğma azarkeşlər önündə ilk sınağı olacaq. Azərbaycan - Belarus qarşılaşmasının start fiti martın 23-də saat 20:00-da səslənəcək.*



Bu, rəqiblə 3-cü oyunumuz olacaq. Tərəflərin ilk matçı 22 il əvvəl keçirilib. 1996-cı il mayın 27-də Azərbaycan Molodeçnoda meydan sahiblərinin qonağı olub. Görüş 2:2 hesabı ilə başa çatıb. Bütün qolların ikinci hissədə vurulduğu qarşılaşmada belaruslular 2 dəfə hesabda önə keçsələr də, millimiz hər dəfə hesabı bərabərləşdirib. Komandamızın ilk qolunu isə oyunun 53-cü dəqiqəsində Qurban Qurbanov vurub. Hazırda millimizin baş məşqçisi olan mütəxəssis yığmada özünün ilk səfər qolunu vurub. Bunadək yığmada 3 dəfə fərqlənən hücumçu bütün qolları neytral meydanlarda vursa da, rəqib azarkeşləri önündə ilk uğuruna Molodeçnoda imza atıb. Millimizin heyətində ikinci qolu isə Ruslan İdiqov vurub. Bu, milliləşən legionerin yığmadakı yeganə qoludur.

2001-ci il fevralın 26-da isə Azərbaycan və Belarus komandaları Bolqarıstanda görüşüblər. Albena toplanışına təsadüf edən matçda cəmi 1 qol vurulub. Matçın 9-cu dəqiqəsinə təsadüf edən erkən qol millimizə qələbə qazandırıb. Bu qolun müəllifi isə Zaur Tağızadə olub.

Qurban Qurbanovun yetirmələri Latviya millisi ilə iyunun 9-da üz-üzə gələcəklər. Yığmamız bu oyunu səfərdə keçirəcək. Qarşılaşmanın keçiriləcəyi stadion və başlanma vaxtı hələlik dəqiqləşməyib.

Latviya yığması həm komandamız, həm də baş məşqçi Qurban Qurbanova tanış rəqibdir. Bu, komandaların 4-cü qarşılaşması olacaq.

Rəqiblərin bütün matçları Riqada keçirilib. Maraqlıdır ki, bütün oyunlar heç-heçə nəticələnib. 21 il əvvələ təsadüf edən ilk matç qolsuz heç-heçə ilə başa çatıb. 5 il sonrakı qarşılaşmada da hesab açılmayıb.

Azərbaycan Latviya yığmalarının oyunlarında qolsuzluq yalnız 2004-cü ildə pozulub. 4 qolun vurulduğu həmin matç 2:2 hesabı ilə nəticələnib. 14 il öncəki matç rəqiblərin son qarşılaşması olub.

Meydan sahiblərinin hesabı açdığı görüşdə Emin Quliyev bərabərlik qoluna imza atıb. Oyunun 75-ci dəqiqəsində isə Qurban Qurbanov penaltidən yığmamızı önə keçirib. Komandamız üstünlüyünü qoruya bilməsə də, həmin qol tarixə düşüb. Belə ki, Azərbaycan millisinin indiki baş məşqçisi olan Qurban Qurbanov futbolçu kimi yığmada son qolunu məhz həmin oyunda vurub. Komandamızın tarixində ən yaxşı bombardir olan keçmiş hücumçu 14-cü - sonuncu qolunu Riqada vurub. Maraqlıdır ki, ilk top da Emin üçün yığmadakı son qol olub.

# Zimbabveli hücumçunun transferi düyünə düşüb

"Mamelodi Sandauns"un hücumçusu Xama Billiatın "Qarabağ"a transferinin hələ də baş tutmamasının səbəbi müəyyənləşib. CAR mətbuatının yaydığı məlumata görə, 28 yaşlı hücumçunun transfer qiyməti bu keçidi gecikdirir.

Bildirilir ki, yerli "Orlando" klubu ilə yanaşı, "Qarabağ" hələ də Zimbabve millisinin üzvündən əl çəkməyib və danışıqlar davam edir. Azərbaycan çempionu futbolçunun özü ilə ilkin razılıq əldə etsə də, onun klubu ilə ortaq məxrəcə gələ bilmir. Problem ondadır ki, "Mamelodi Sandauns" qol "silahı"nın transferindən 2,5 milyon dollar gəlir əldə etmək niyyətindədir. Lakin ağdamlılar tələb edilən bu məbləğin yüksək olduğu qənaətindədir. Bununla belə, danışıqların hələ də dondurulmadığı vurğulanıb.

O ki qaldı "Orlando"ya, onlar da Billiatın keçidində israrlı görünürlər. Pirates təmsilçisi futbolçuya daha yüksək maaş təklif edib. Belə ki, "Mamelodi Sandauns"da aylıq məvacibi 13 min dollar olan hücumçuya "Orlando" 16 min dollar ödəməyə hazırdır. Lakin Billiat karyerasını Avropada davam etdirmək niyyətindədir. Afrikadan getmək istəyən futbolçu "Mamelodi Sandauns"la yaya qədər olan müqaviləni müddətini uzatmağa da razılıq verməyib.

Qeyd edək ki, 2013-cü ildən "Mamelodi Sandauns"un formasını geyinən Xama Billiat Zimbabve millisinin heyətində 26 oyun keçirib, 7 qola imza atıb.

---

# Rəşad Sadıqov:

## "Futbolçuları fiziki cəhətdən çox yükləmədik"



*21 yaşınadək futbolçulardan ibarət Azərbaycan yığması yanvarın 9-dan 27-dək Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışı keçirdi. Rəşad Sadıqovun rəhbərliyi altında ilk dəfə hazırlıq keçən U-21 bir neçə yoldaşlıq oyununda qüvvəsini sınadı. Təlim-məşq toplanışı başa çatandan sonra Rəşad Sadıqov "Olimpiya dünyası" qəzetinə müsahibə verdi. Baş məşqçi Antalyada verdiyi müsahibədə komandanın son hazırlıqlarından, seleksiya işlərindən danışdı.*

*- Başçılıq etdiyiniz U-21 yığmasının Antalyadakı təlim-məşq toplanışını necə dəyərləndirirsiniz?*

- Maraqlı toplanış alındı. Heyətdə yeni futbolçular var idi. İmkan olduqca hər birinə yığma formasını geyinməyə şans verdik. Düşünürəm ki, bu, bəzi futbolçuların haqları idi. Heyətdəki bir neçə futbolçunun mövqelərini dəyişdik, debüt edənlər oldu. Futbolçularla söhbətimiz, taktiki məşqlərimiz reallaşdı. Toplanışı qənaətbəxş hesab edirəm. Məndən olsa, onlarla uzunmüddətli bir yerdə olmaq istərdim. Təəssüf ki, buna imkanımız yoxdur. Yığma klubdan fərqlənir. Bəzi şeylərin yaxşı alınması üçün təkrarlar lazımdır. Buna isə yetərincə vaxtımız yoxdur.

*- Çatışmazlıqlar daha çox hansı cəhətdəndir: taktiki, fiziki, yoxsa uyğunlaşma baxımından?*

- Hər cəhətdən problemlərimiz var. Bu, tək onların deyil, Azərbaycan futbolunun problemidir. Başda mən olmaqla, çatışmayan cəhətlərimiz çoxdur. Bu qrup çox tənqid olunub. Amma bununla qəti razı deyiləm. İstər klub, istərsə də yığma səviyyəsində çatışmazlıqlarımız olub. Toplanışda bütün məqamlara toxunduq. Düzdür, futbolçuları fiziki cəhətdən çox yükləmədik. Klub məşqçilərinə də bildirmişəm ki, onlar özləri fiziki baxımdan yükləmələr aparsınlar. Futbolçuların yükləmə altında oynamalarını istəmirəm. Taktiki və psixoloji məqamın üzərində daha çox dayandım.

*- Öz fəlsəfənizi futbolçulara aşılaya bildinizmi?*

- Mənim istədiyim Qurban Qurbanovun oyun fəlsəfəsidir. Onlar mənim yanımda keçici müddət olacaqlar. 1-2 il, kimisi isə 4 və ya 5 ay. Özüm U-21 millisində cəmi 4 ay olmuşam.

*- Növbəti toplanış nə vaxta planlaşdırılıb?*

- Toplanış Kosovo və İrlandiya yığmaları ilə seçmə mərhələ öncəsi olacaq. Məcburuq ki, futbolçuların bizim sərəncamımızda olmaları üçün rəsmi oyunları gözləyək.

*- Bəs seleksiya işini necə aparacaqsınız?*

- Bacardıqca oyunları izləyəcəm. Biz daha çox "İnstat" proqramı ilə işləyirik. Legionerlərin oyununa canlı baxmaq olmur. Çox gözəl proqramdır, bütün futbolçuların çıxışlarının görüntülərinə baxmışam. Bir futbolçunun 90 dəqiqə ərzində nə etdiyini görmək mümkündür. Futbolçuların özlərinə də demişəm ki, oyunda yoxamsa, bu, sizi görməməyim demək deyil. Çox sayda futbolçular var, seçim etmək asan olmayacaq. Yığmaya 30-40 nəfər namizəd var. Legionerləri də nəzərə alsaq, Ozan Can Kökçü, Barış Ekincier, Fərid Nəbiyev, Ziya Əzizov və ya digərlərini izləyirəm. Son siyahını seçərkən yanlışlığa yol verməməyə çalışacağıq. Təbii ki, səhvin olmaması mümkün deyil. Bu da mənim baxışlarımdan irəli gələcək. Ola bilər, kiminsə fəlsəfəsi fərqlidir. Kimsə milliyə dəvət almayıbsa, bu, o demək deyil ki, yığmaya layiq deyil.

*- Millidən imtina edən Ozan Can Kökçüyə yenidən dəvət göndərilməsi birmənalı qarşılanmadı. Bu məsələyə aydınlıq gətirərdiniz...*

- Çox istərdim bu açıqlamamda bütün mətbuat nümayəndələri iştirak etsin. Ozan Canla bağlı məsələni çox araşdırdım. Məni tanıyanlar bilir ki, kimsə milli komandamıza hörmətsizlik edərsə, doğma qardaşım da olsa, ona burada yer olmayacaq. Nə səviyyədə futbolçu olursa olsun. Bu məsələni 10-15 gün araşdırdım. Onun meneceri mənimlə birbaşa əlaqə saxladı. O da durumu bir daha mənə anlatdı. Ozan Canın fikirlərini, məsələnin necə olduğunu bir daha çatdırdı. Özüm də araşdırma apardım və gördüm ki, futbolçu ilə millimiz arasında elə də böyük problem olmayıb. Milliləşdirilmiş, lakin sonradan dəvət göndərdiyimiz futbolçunun yığmadan imtina etməsi mümkündür. Futbolçu bunu Avropada legioner sayılmamaq üçün edə bilər. Bu tip amillər var ki, biz onları qınaya bilmərik. Məsələn, futbolçu Azərbaycan vətəndaşlığından imtina edir ki, Rusiyada legioner hesab edilməsin. Buna normal baxıram. Başqa səbəblər olubsa, kimsə təhqir, hörmətsizlik edibsə, həmin adama millidə yer yoxdur. Yığmanın toplanışında bütün futbolçuları yaxından izləmək istəyirdim. Ozan Kökçü ilə yaxından görüşmək və bu məsələləri bir də üzbəüz danışmaq istəyirdim. Təəssüf ki, toplanışa gələ bilmədi, klubu icazə vermədi. Rəsmi oyunları var idi deyə, üstələrinə çox gedə bilmədik. Nümayəndəsi ilə danışanda da bildirdi ki, onun Azərbaycan millisinə qayıtmaq istəyi böyükdür. Bəzi məqamlar olub ki, oynamaya-oynamaya günahkar hesab edilib. Onunla üzbəüz görüşmək istəyirəm. Təklif olsa da, özü ilə telefonla danışmadım. Dedim ki, gələr toplanışda danışarıq. Kim olur olsun, hörmətsizlik görsəm, o adam yığmada olamayacaq. Söhbət təkcə Ozan Candan getmir. Mənə görə bəzi futbolçuların elə problemləri olmuşdu ki, fikrimcə, Ozan Canın məsələsindən daha qəbahətlidir. Mən bütün futbolçulara şans verdim, onlarla yenidən danışmaq istədim. Məqsədim onları Azərbaycan futboluna qazandırmaqdır.

*- İndiki durumda yığmanın bu futbolçulara ehtiyacı var?*

- İstər milli, istər klub səviyyəsində olsun, neçə ildir, futbolun içindəyəm. Futbolçularımızın o qədər yanlış addımları olub ki, Ozan Canın etdiyi onların yanında elə də böyük məsələ deyil. Messinin özü də millidən imtina edib. Bu gün Argentinanın qəhrəmanı emosional şəkildə millidən imtina edirsə, Arda Turan bu addımı atırsa... Futbolda belə şeylər olur. Amma olmamalıdır. Buna bəraət qazandırmıram. Ozan Canın özünə də çatdırdım ki, düz etməyib, səhvə yol verib. Açıqlamaları xoşuma gəlmədi. Amma sonra daha bir açıqlaması oldu, gördüm ki, peşmançılıq



var. Bundan sonra qənaətə gəldim ki, ona şans verim. Bir də onunla üzbəüz danışım. Qarşıdakı toplanışlarda baxacağam. Növbəti toplanışa çağırıla da bilər, çağırılmaya da. İlk fürsətimdə onunla bu söhbəti tamamlayacağam. Legionerlərdən maksimum vətənpərvərlik gözləməməliyik. Bu, mümkün olan şey deyil. Heç legioner dəvət etməyək, mən razı. Yenə deyirəm ki, çox güclüdürsə, sabah bizim futbolçularımız ona baxıb nəsə öyrənəcəksə, elə legionerləri dəvət etmək lazımdır. Çox yox, 3-4 nəfər layiq olanları. Bu gün Fransa, Almaniya, İngiltərə yığmalarına baxırıq, heyətlərində fərqli millətlərdən futbolçular var. Legioner söhbəti yox dərəcəsindədir.

*- Ancaq orada vəziyyət fərqlidir. Məsələn Almaniya yığmasında çıxış edənlər orada yaşayan mühacir ailələrinin övladlarıdır. Biz isə kənardan futbolçu gətiririk...*

- Sizin dediyinizdə də həqiqət var. O demək deyil ki, bu gün belədir, belə də olacaq. Əgər bir şey düz deyilsə, onu iki və ya üçüncü dəfə etməyəcəyik. Səhv edib, sona qədər israr edən insan deyiləm. Bu günə qədər səhvlərim olub, bundan sonra da olacaq.

*- Almaniyanın "Ayntraxt" klubunda intizamsızlığa görə əsas komandadan uzaqlaşdırılan Renat Dadaşovun sizin toplanışdan kənarda qalması bu amillə bağlıdır?*

- Düzü, ona təklif göndərməmişdim.

*- Həmin futbolçunu hazır saymırsınız?*

- Hazır saymaq məsələsi deyil. O özünü daha çox əsas yığmada görür. İstəmirəm ki, mənim olduğum yerə hansısa futbolçu istəksiz gələ və ya "yox" deyə. Ümid edirəm ki, o, gələcəkdə əsas yığmada möhkəmlənəcək. Onu U-21-in üzvü kimi görmürəm. Renat Dadaşovla bağlı başımda qarışıq fikirlər var. Sabah özü də bildirsə ki, böyük həvəslə U-21-də gəlib oynayaram, onda bu haqda fikirləşmək olar. O, bura əsas yığma üzvü kimi gəlib. Hiss edirəm ki, onda bu cür fikir var. Ramil Şeydayev, Mahir Mədətova danışdım, gördüm, ikisi də gəlməyə razıdırlar və məşqlərdə böyük həvəslə çalışdılar. Nəsə alındı ya yox, bunlar önəmli deyil. Əsas odur ki, onlarda bu istəyi gördüm. Kimliyindən asılı olmayaraq, istək gördüyüm futbolçuya təklif göndərəcəyəm.

*- Milli komandanın Moldova yığması ilə oyununu izlədiniz. Bu barədə nə deyə bilərsiniz?*

- Komandamız Qurban Qurbanovun rəhbərliyi altında ilk oyununu keçirdi. Legionerlərimiz iştirak etmirdi. Fikrimcə, birinci oyuna görə pis alınmadı. Futbolçularımızın Qurban müəllimə, onun isə oyunçulara uyğunlaşması üçün vaxt lazımdır. Çox istərdim ki, Millətlər Liqası başlayanda futbolçular uyğunlaşma mərhələsini adlasınlar. İkinci hissə daha çox xoşuma gəldi. Futbolçular üzərindəki həyəcanı atdılar. Onlar ilk hissədə həyəcanlı idilər. Lakin fasilədən sonra daha inamlı və kəskin oynamağa başladılar. Sadəcə olaraq, Moldova millisi müdafiəyə daha çox diqqət ayırmışdı. Bizdən səhv gözləyirdilər və bütün oyunu da bir səhvlərimiz üzərində qurmuşdular. Ən çox xoşuma gələn futbolçularımızın meydanda nizam-intizamlı olması idilər. Hamı çalışırdı ki, tam formada olmasa belə, bacardığını etsin. Qol vurmağa, qələbə qazanmağa çalışırdılar.

*- Ruslan Abışov sizin mövqeyinizdə çıxış etdi və yaxşı təsir bağışladı. Onu öz mövqeyinizdə görürsünüzmü?*

- Mənim yox, Ruslanın millidə öz yeri var. O, meydanda ən yaxşılardan idi. İnanıram ki, gələcəkdə də millinin müdafiə mövqeyində problem olmayacaq.

*- "Qarabağ" klubunda durum necədir? Məşqçi olmaq çətin deyil ki?*

- Qurban müəllim "Qarabağ"a qayıdanda çox sevindim (gülür). Baş məşqçi deyildim, iki-üç günlük əvəzləyici vəzifəsini yerinə yetirirdim. Elə də böyük işimiz olmadı. Dərindən nəfəs aldım, çünki məsuliyyətli idi. Yerlilərlə legionerlər tam fərqlidir. Çalışırsan ki, futbolçulara bir az başqa cür yanaşasan. Legionerlər bir az həssas olur, xüsusi diqqəti sevirlər. İstər klub olsun, istərsə də milli. Özüm də legioner olanda xüsusi diqqət istəmişəm. Futbolçu diqqət görməyəndə soyuyur, inciyir.

*- "Bursaspor"dan dəvət aldığı bildirilən Riçard Almeydada inciklik yoxdur ki?*

- İnciklik yoxdur. Almeyda təcrübəli futbolçudur. Bilir ki, "Qarabağ" ona, o da "Qarabağ"a nələr verib. Çempionlar Liqasının qrup mərhələsində çıxış edirsənsə, futbolçularına dəvət olacağına hazır olmalısan. Bu, normal bir şeydir. Dino Ndlovu ilə də bu cür baş verdi. Bu gün Almeydaya da, başqa futbolçularımıza da təkliflər var.

***Rahib Səmədov,***
***Bakı-Antalya-Bakı***

# DÜNYA idmanı



## Formula-1 “grid-girls”lər uşaqlarla əvəz ediləcək



Formula-1 yarışlarının rəhbərliyi Beynəlxalq Avtomobil Federasiyası (FIA) ilə birgə gənc auditoriya cəlb etmək üçün yeni - “grid-kids” təşəbbüsü elan edib. İndi ənənəvi “grid-girls”lərin yerinə start meydançasına iştirakçıların nömrələri yazılmış lövhələri aparan uşaqlar çıxaracaqlar.

Namizədləri milli avtoklublarla birgə Qran-pri bələdçiləri seçəcəklər. Seçki anınadək bütün iddiaçılar kartinqlə məşğul olmalı və ya kiçik yarış seriyalarının iştirakçısı olmalıdırlar. Yerli təşkilatçılar qaydaları özləri müəyyən edəcəklər. Seçimlər həm idman nailiyyətlərinin əsasında, həm də lotereyanın yekunlarına görə aparılacaq.

Uşaqlar iştirakçıların nömrələri yazılmış lövhələri yalnız Formula-1 startından əvvəl deyil, həm də yarış müddətində saxlayacaqlar. Bundan başqa, bazar günləri uşaqları müşayiət edən valideynlər də yarış iştirakçılarının olduğu əraziyə (paddock) buraxılış əldə edəcəklər.

Formula-1 yarışlarının kommersiya direktoru Şon Bratçes deyib: “Bu cür əlamətdar hadisənin iştirakçısı olmaq uşaqlara unudulmaz dəqiqələr bəxş edəcək. Onlar öz qəhrəmanlarını yarışlara hazırlaşanda görəcək və onlarla təmasda olacaqlar. Bu, həm uşaqlar, həm də onların ailələri üçün unudulmaz təcrübə olacaq.

Uşaqlar avtomobil idmanı ilə məşğul olmağa davam etmək, məşq və təlimlər üçün də əlavə stimul qazanacaqlar. Onlar gələcəkdə Qran-pri startına çıxmağı arzu edəcəklər. Bu, Formula-1 qəhrəmanlarının yeni nəslinə ilham vermək üçün ən yaxşı vasitədir”.

FIA-nın prezidenti Jan Todt qeyd edib ki, Formula-1 avtomobil idmanının zirvə yarışlarıdır. FIA-nın piramidasına daxil olan kiçik seriyalardan birində iştirak edən hər bir gənc sürücü bu yarışlarda iştirak etməyi arzu edir. Biz sevinirik ki, onların arzularına çatmasına kömək edir və gələcək çempionlara startdan əvvəl öz qəhrəmanları ilə start meydançasında dayanmaq imkanı veririk”.

Federasiya prezidenti deyib: “Bu, FIA-ya daxil olan avtomobil klublarına əlavə dəstək verən çox yaxşı təşəbbüsdür”.

## İdmanla gülək



- Həftədə 3 dəfə idman zalında oluram. Çalışıram artıq çəkidən yaxa qurtarım. Ayda min manat xərcim çıxır.
- Məşqlər niyə belə baha başa gəlirki?
- Çünki zalın yeməkxanasında qiymət çox yüksəkdir.

* * *

- Dostum, bir tapmaca var, desəm, açmasını tapa bilərsən?
- Buyur. Mənim cavabını bilmədiyim tapmaca yoxdur.
- İngiltərədə anadan olub, Braziliyada böyüyüb, Azərbaycanda ölüb. Nədir cavabı?
- Çox çətindir. Tapa bilmədim.
- Bu cür asan tapmacanı tapa bilmədin. Açması futboldur!

* * *

İki yaşlı və dost futbolçu qərara alır ki, kim birinci dünyasını dəyişsə, o dünyada futbolun olub-olmaması barədə digərinə xəbər göndərsin. Bir müddətdən sonra veteran futbolçulardan biri dünyasını dəyişir. Üç gündən sonra dünyasını dəyişən futbolçudan sağ qalmış dostuna zəng gəlir.

- Dostum, mənim sənə iki xəbərim var. Biri yaxşı, digəri pis. Hansından başlayım?
- Yaxşı xəbərdən başla...



- Arxayın ol, burada da futbol oynayırlar.
- Çox sevindim. Bəs pis xəbər nədir?
- Yaxın günlərdə futbol qarşılaşması var. Sən əsas heyətdəsən.



*“Olimpiya dünyası” qəzetinin arxivindən*

*(“Olimpiya dünyası” qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)*

## “Barselona”nın “Vasko de Qama”ya borcu var

Braziliyanın “Vasko de Qama” klubu “Liverpul”dan “Barselona”ya keçən Felipe Koutinyonun transferindən yararlanacaq. “Barselona” “Vasko de Qama”ya 3 milyon avro ödəyəcək. Bu barədə Braziliya klubunun vitse-prezidenti Orlando Markes deyib: “Biz hələ vəd olunan məbləği əldə etməmişik. Qaydaya görə, Koutinyonun klubla müqaviləsindən 30 gün sonra bizə pul ödənilməli idi. Lakin Kataloniya təmsilçisi susur. Koutinyo bizim futbolçumuz olub, onun yetişməsində “Vasko de Qama”nın rolu olub. Hesab edirik ki, aramızdakı narazılıq sakit məcrada həllini tapacaq”.

## Yeni baş məşqçi köhnə heyətə üstünlük verəcək

İtaliya millisinin yeni baş məşqçisi Luici di Byacio mart ayında keçiriləcək yoldaşlıq görüşlərinə ciddi hazırlaşır. Belə ki, Argentina (23 mart) və İngiltərə (27 mart) milli komandaları ilə görüşdə yeni baş məşqçi əvvəlki heyətə üstünlük verəcək. DÇ-2018-ə vəsiqə əldə edə bilməyən İtaliya millisinə vida edən qapıçı Canluici Buffon və 2014-cü ildən bugünə kimi heyətə düşə bilməyən Mario Balotelli də yığmaya dəvət olunub.

## “Dumanlı Albion”da gözlənilməz dəyişiklik

“Çelsi” mövsümün sonunda italiyalı baş məşqçi Antoni Konte ilə yollarını ayıra bilər. Artıq onu bu vəzifədə əvəz edəcək mütəxəssisin adı da müəyyənləşib. Belə ki, “zadəganlar” 2019-2020-ci illər mövsümündə “Barselona”nın keçmiş baş məşqçisi Luis Enriki ilə ilkin razılığa gəlib. Klubun yaydığı məlumata görə, “Çelsi” rəhbərliyi və futbolçuları ilə Antonio Konte arasında yaranmış narazılıqlar günü-gündən artır. İtaliyalı baş məşqçi isə bu barədə hələ ki, heç bir açıqlama verməyib.

## Rayan Qiqqz “Harri “Real”da oynasa...”

Uels millisinə yeni başqçi təyin olunan Rayan Qiqqz futbolçu Harri Keyn barədə maraqlı açıqlama verib. Sabiq futbolçu Keynin “Real”a keçidi barədə bunları deyib: “Harri əla formada olan istedadlı futbolçulardan biridir. “Totenhem”in hücumçusu hazırda istənilən klubda liderliyi ələ ala bilər. Amma mən onu Madrid “Real”ında görməkdən məmnun olardım. İspanların heyətində Keynə böyük ehtiyac var. Harri “Real”da oynasa, Qaret Beyl kimi böyük şöhrət qazanacaq. Çempionlar Liqasında ən yüksək mükafatlardan bir neçəsinə yiyələnəcək”.

## *Doğma klubunda əbədi nifrət qazanan Ronaldinyo*

Ronaldinyo milyonlarla futbol azarkeşi tərəfindən sevilir. Hansı komandanın azarkeşi olmağınızdan asılı olmayaraq, Ronaldinyoya nifrət etməyəcəksiniz. Lakin “Qremio”nun azarkeşləri onu sevmir, onu görmək istəmir. Bəs görəsən, bunun səbəbi nədir?

Futbol karyerasına Braziliyanın “Qremio” komandasında başlayan Ronaldinyonun gələcəkdə bacarıqlı bir futbolçu olacağı gözlənilən idi. Futbolçunu əlində saxlamaq istəyən “Qremio” yetişdirdiyi futbolçudan ciddi pul qazanmaq fikrində idi.

Futbolçu Avropa komandaları ilə görüşməyə başladı. 2001-ci ilin fevral ayında onun “Qremio” ilə müqaviləsi başa çatırdı. Hamı bu müqavilənin artırılacağını düşündüyü halda o gözlənilmədən PSJ ilə razılığa gəldi.

“Qremio”rəhbərliyi uzun sürən mübarizədən sonra bu transferə görə Fransa klubundan 5 milyon dollar aldı. Amma həmin ərəfədə Ronaldinyonun dəyəri ən azı 20 milyon dollar idi. “Sambaçı”nın bu keçidi “Qremio”nun azarkeşləri tərəfindən xəyanət kimi qəbul edildi. Hətta futbolçu “Barselona” klubunda müvəffəqiyyət əldə edərkən onu alqışlamadılar. 2010-cu ildə Milandan ayrılan Ronaldinyo mətbuata “Qremio”ya geri qayıtmaq istədiyini bildirmişdi. Keçmişi geridə qoyan “Qremio”nun azarkeşləri bu açıqlamadan sonra Ronaldinyonu yeni



dən komandada görmək istəyirdilər. Lakin futbolçu “Atletiko Mineiro” ilə müqavilə imzaladı. Özlərini aldadılmış hiss edən “azarkeşlər onun müqavilə bağladığı klubun adından istifadə etdiyini düşünürdülər. Bu iki hadisədən sonra “Qremio”nun azarkeşləri bu günə kimi futbolçuya nifrətlərini gizlətmirlər.

***Aliyə İlyasova***

Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi Natiq Məmmədova, atası

**Məmməd Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19